QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 026 (5746) **8 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Prezident İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonunda olub



Səh 2

**Əmək pensiyalarının sığorta hissəsi artırıldı**



4

**Əli Həsənov: "Azərbaycan dövləti İstanbulda keçirilən Avrasiya İqtisadi Zirvə toplantısına hər zaman xüsusi diqqət ayırıb"**



5

**"Freedom House" qeyri-obyektiv və bilinməyən metodologiya ilə qiymətləndirmə aparan çirkin qurumdur**



5

**Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yeddinci iclası keçirilib**



5

**YAP Gənclər Birliyinin təşəbbüsü ilə "Gənclər və ailə: ənənə və müasir baxış" mövzusunda tədbir keçirilib**



6

**"Azərbaycan gəncləri böyük uğurlar qazanıb"**



6

10

**Rəsmi Statistika: Borc içində batan Ermənistan!**



12

**Arif Əliyev yenə də sərsəmlədi**



13

**"Freedom House" köhnə havasını çalır**

FREEDOM HOUSE

# Prezident İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonunda olub

***Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonunda olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı zəlzələdən zərər çəkən tikililərə baxıb, sakinlərlə söhbət edib.***



Xəbər verildiyi kimi, fevralın 5-6-da Azərbaycan ərazisində yeraltı təkanlar qeydə alınıb. Fevralın 5-də yerli vaxtla saat 23:31-də Pirqulu stansiyasından 11 kilometr cənub-qərbdə İsmayıllı ərazisində zəlzələ olub. Respublika Seysmoloji Xidmət Mərkəzinin məlumatına görə, zəlzələ episentrdə 6 bal, ətraf rayonlarda 5-3 bala qədər hiss edilib. Əsasən dağıntılar Şamaxı rayonunda qeydə alınıb. Fevralın 6-da yerli vaxtla saat 02:34-də Pirqulu stansiyasından 8 kilometr cənub-qərbdə - İsmayıllı rayonu ərazisində 3 bal gücündə zəlzələ baş verib. Daha bir yeraltı təkan yerli vaxtla saat 04:25-də qeydə alınıb. Hadisə nəticəsində xəsarət alanlara təcili tibbi yardım göstərilib və onlar evə buraxılıb, insan tələfatı qeydə alınmayıb.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov dövlətimizin başçısına fevralın 5-də və 6-da təbii fəlakətin törətdiyi fəsadlar barədə yerində məlumat verdilər.

Şamaxı şəhərinin Salman Mümtaz küçəsində Rasim Həsənova məxsus 33 nömrəli evə baş çəkən Prezident İlham Əliyevə məlumat verildi ki, ikimərtəbəli, beş otaqlı evin iki otağı tamamilə dağılıb, ev qəzalı vəziyyətə düşüb.





Evin ağbirçəyi: Xoş gəlmisiniz, Allah Sizi var eləsin. Çox sağ olun, Sizdən çox razıyıq.

Prezident İlham ƏLİYEV: Sağ olun. Yeni ev tikiləcək, narahat olmayın.

Qadın sakin: Başına dönərəm, Allah Sizə uzun ömür, cansağlığı versin, ailənizlə xoşbəxt olasınız. Allah o bir oğlunuzu gözünüzə çıraq eləsin. Nə yaxşı ki varsınız. Biz Sizinlə qürur duyuruq.

Prezident İlham ƏLİYEV: Çox sağ olun. Biz evləri bərpa edəcəyik, yenidən tikəcəyik, müvafiq göstəriş verilmişdir. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dünəndən Şamaxıdadırlar, yaxşı işləyirlər. Bütün müraciətlər nəzərə alınır, evlərə baxış keçirilir. Harada ki, bərpa etmək mümkündür, bərpa olunacaq. Harada ki, mümkün deyil, yeni ev tikiləcək. Dövlət bu işi öz üzərinə götürür. Əlbəttə, məncə bu evin bərpası mümkün deyil. Ev tikilənə qədər hansı kömək göstəriləcək?



Fövqəladə hallar naziri Kəmaləddin HEYDƏROV: Cənab Prezident, kimin imkanı, həyətində başqa bir yeri var orada məskunlaşıb, qalanlarını rayon icra hakimiyyəti ilə birgə müvəqqəti yerləşdiririk. Sizin tapşırığınızla, cənab Prezident, artıq dünəndən 73 evə baxış keçirilib. Bunlardan hələlik 26-sının qəzalı olduğu müəyyənləşdirilib, amma müraciətlərin sayı çoxdur, 750 müraciət olunub. On komissiya Şamaxı rayonunda, iki komissiya Ağsu rayonunda, iki komissiya isə İsmayıllı rayonunda işləyir. Komissiyaların sayını artıracağıq ki, Sizin tapşırığınızı daha tez icra edək.

Prezident İlham ƏLİYEV: Tezliklə bu ev yenidən tikiləcək. Müvəqqəti olaraq bütün lazımi kömək göstərilməlidir, tapşırıqlar verilib. Yəni, siz narahat olmayın.

Ardı Səh. 3

# Prezident İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonunda olub



çox-çox inanırdıq. Nə yaxşı ki, varsınız. Xalqa göstərdiyiniz dəstəyə, köməyə görə Sizə həmişə minnətdarıq, "Çox sağ olun!" deyirik. Nə yaxşı ki, bizim Prezidentimizsiniz. Biz Sizinlə fəxr edirik. Həmişə Sizin yanınızdayıq. Həmişə Sizə inanırıq. Azərbaycanın gələcəyinin etibarlı əldə olduğuna inanırıq və biz bunu görürük. Bu gün bir daha bunun sübutudur. Çox sağ olun ki, gəlmisiniz.

Prezident İlham ƏLİYEV: Sağ olun, təşəkkür edirəm. Siz bilirsiniz ki, mən Şamaxıda tez-tez oluram. Dəfələrlə olmuşam. Burada yaxşı tədbirlərdə bərabər iştirak etmişik, infrastruktur layihələrinin, sosial obyektlərin, kənd təsərrüfatı obyektlərinin açılışlarında olmuşuq. Şamaxının inkişafı daim diqqət mərkəzindədir. Təbii ki, belə hadisə baş verəndə mən mütləq burada, yanınızda olmalı idim ki, ilk növbədə, sizə öz dəstəyimi göstərim, digər tərəfdən, vəziyyətlə tanış olum. Dağıntılar var, xoşbəxtlikdən insan ölümü olmayıb. Onu da bildirməliyəm ki, bütün qəzalı evlər qısa müddət ərzində ya bərpa ediləcək, ya da yenidən tikiləcək. Komissiya işləyir, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dünəndən buradadır, yerli icra hakimiyyəti də işləyir. Hələ ki, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların məskunlaşması ilə bağlı məşğuldurlar.

Ardı Səh. 4





Əvvəli Səh. 2

Qadın sakin: Allah işinizi avand eləsin. Sağ olun.

Sonra Prezident İlham Əliyev Vidadi Məmmədov küçəsində Mailə Quliyevaya məxsus 7 nömrəli evdə oldu. Bu evin bir otağının divarı zəlzələ nəticəsində tam dağılıb və ev qəzalı vəziyyətə düşüb.

Qəzalı evlərdən biri də Səttar Bəhlulzadə küçəsində Vüqar Teyfurova məxsus 10 nömrəli evdir. Birmərtəbəli kürsülü evin otaqlarından biri tamamilə dağılıb. Evə dəymiş ziyanla tanış olan Prezident İlham Əliyev sakinlərlə söhbət etdi.

Sakinlər: Xoş gəlmisiniz, cənab Prezident. Dar gündə dadımıza çatdınız. Allah canınızı sağ eləsin.

Sakin Xatirə RƏHİMZADƏ: Cənab Prezident, bir daha xoş gəlmisiniz. Biz Sizin gələcəyinizə inanırdıq. Çünki həmişə xalqının ağır günündə onun yanında olan, xalqına dəstək olan Prezidentin bu təbii fəlakət zamanı şamaxılıların yanında olacağına



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

8 fevral 2019-cu il

# Prezident İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonunda olub

Əvvəli Səh. 3

Eyni zamanda, tezliklə bu evlərin bərpası, yenidən tikilməsi nəzərdə tutulur. Müvafiq Sərəncam imzalanacaq, Prezidentin ehtiyat fondundan vəsait ayrılacaq. İndi yüzlərlə müraciət var. Mənə verilən məlumata görə, hələ ki, 70-dən çox müraciətə baxılıb və müvafiq aktlar tərtib edilib. Bu aktlar əsasında bütün təmir-bərpa işləri aparılacaq. Vətəndaşlar narahat olmasınlar. Azərbaycan dövləti həmişə öz vətəndaşının yanındadır.

Sakinlər: Çox sağ olun.







Biz də Sizi dəstəkləyirik, hamımız Sizin arxanızdayıq, Sizə güvənirik.

Xatirə RƏHİMZADƏ: Biz bu dəstəyi gördük. Bu dəstəyi Sizdən və Mehriban xanımdan gördük. Bizim minnətdarlığımızı Mehriban xanıma çatdırmağı xahiş edirik. Könüllüləri göndərdi, çox böyük dəstək oldu. Nazir də, rayon rəhbəri də bütün gecəni burada idilər. Çox sağ olsunlar.

Xanlar RƏHİMZADƏ: Ona görə də əhali tam sakit oldu, cənab Prezident. Yerli hakimiyyətin nümayəndələri gecəyarısı bütün evləri gəzirdilər. Hamısı yanımızda idi. Ona görə də heç bir narahatlıq yoxdur.

Xatirə RƏHİMZADƏ: Sağ olun ki, varsınız. Biz Sizə arxalanırıq. Xalqı bu qədər sevirsiniz. Sağ olun ki, xalqa bu qədər dəstəksiniz. Dəstəyinizə görə minnətdarıq. Sizinlə qürur duyuruq. Prezidentimizin belə qayğıkeşliyi, xalqa xidməti ilə çox qürur duyuruq. Azərbaycan etibarlı əllərdədir.

Prezident İlham ƏLİYEV: Çox sağ olun. Mən də sizinlə qürur duyuram ki, hətta belə ağır günlərdə nikbinliklə yaşayırsınız və inanırsınız ki, Azərbaycan dövləti, Azərbaycan hakimiyyəti həmişə sizin arxanızdadır. Bütün dövrlərdə belə olub, bundan sonra da belə olacaq. Həm könüllülərin, həm yerli icra orqanlarının, Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının - bunların bir amalı var: vətəndaşlara kömək etmək. Mən hesab edirəm ki, bərpa işləri tezliklə başlamalıdır. Vəsait də ayrılacaq.

Kəmaləddin HEYDƏROV: Cənab Prezident, artıq layihələr var. Həm Zaqatala zonasındakı zəlzələdən, həm də Kür-Araz bölgəsindəki daşqından hazır layihələrimiz var. Ona görə də Sizin tapşırığınızla təcili olaraq bu işlərə başlanacaq.

Prezident İlham ƏLİYEV: Bəli, təbii fəlakət olur. Bir neçə il bundan əvvəl Zaqatala, Qax rayonlarında zəlzələ oldu, orada minlərlə ev dağılmışdı. Biz o zəlzələnin fəsadlarını aradan qaldırdıq. Bir neçə il bundan əvvəl daşqın olmuşdu, minlərlə evi su basmışdı. Orada da lazımi tədbirlər görülmüşdü. Bütün evlər dövlət vəsaiti hesabına yenidən tikildi, bərpa edildi. Ona görə biz bu zəlzələnin fəsadlarını da tezliklə aradan qaldıracağıq. Mən gəlmişəm bunu sizə şəxsən deyim ki, vətəndaşlar tam əmin olsunlar, bütün lazımi işlər görüləcək.

Sakinlər: Çox sağ olun. Minnətdarıq. Sizə cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayırıq, cənab Prezident, Allah Sizi qorusun.

Prezident İlham ƏLİYEV: Çox sağ olun. Sizə də cansağlığı, uğurlar arzulayıram. Bizim hələ görüşlərimiz çox olacaq. Çünki Şamaxı rayonunda bundan sonra da gözəl işlər görüləcək.

Xanlar RƏHİMZADƏ: İnşallah. Sizə inanırıq. Sizin siyasətiniz sayəsində gələcəyimiz daha yaxşı, nurlu olacaq. Təşəkkür edirik.

Prezident İlham ƏLİYEV: Sağ olun.

## Əmək pensiyalarının sığorta hissəsi artırıldı



Prezident İlham Əliyev əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında Sərəncam imzalayıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılır ki, 2018-ci il üzrə orta aylıq nominal əməkhaqqının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq 2019-cu ilin 1 yanvar tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılmasını təmin etsin; fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin. Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 211 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ADA" Universitetinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2015-ci il 4 may tarixli 516 nömrəli, "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli və "Güzəştli mənzil" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2017-ci il 24 may tarixli 1418 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərarın təsvir, spesifikasiya və nümunələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 8 aprel tarixli 78 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

## Əli Həsənov: "Azərbaycan dövləti İstanbulda keçirilən Avrasiya İqtisadi Zirvə toplantısına hər zaman xüsusi diqqət ayırıb"



Azərbaycan dövləti İstanbulda keçirilən Avrasiya İqtisadi Zirvə toplantısına hər zaman xüsusi diqqət ayırıb. Azərbaycan 22 ildir ki, bu toplantıda geniş tərkibli nümayəndə heyəti ilə fəal şəkildə iştirak edir. Tədbirin təşkilatçıları, o cümlədən Türkiyə hökumətini təmsil edən nümayəndələr bunu yüksək qiymətləndirirlər. Əvvəllər Zirvə toplantısında ulu öndərimiz Heydər Əliyevin, son 15 ildə isə Prezident İlham Əliyevin müraciətləri oxunub.

AZƏRTAC xəbər verir ki, bu fikirləri İstanbulda keçirilən XXII Avrasiya İqtisadi Zirvə toplantısında iştirak edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib.

Əli Həsənov qeyd edib ki, Avrasiya qitəsi Azərbaycanın siyasi, iqtisadi, sosial, geosiyasi, enerji, nəqliyyat, kommunikasiya maraqlarının kifayət qədər təmsil olunduğu bir qitədir. Azərbaycan da bu maraqların həyata keçirilməsi üçün fəal siyasət yürüdür. Bir neçə layihəni qeyd etmək olar. Toplantıda da bildirildiyi kimi, Azərbaycan Avropa ilə Asiyanı birləşdirən böyük İpək Yolunun qurucu dövlətlərindən biridir. Təkcə Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi onu göstərdi ki, Türkiyə və Azərbaycan bu iki qitənin birləşdirilməsində önəmli rol oynayan lider dövlətlərdir. Eyni zamanda, Gürcüstanı da buraya əlavə etmək lazımdır. Bundan başqa, Azərbaycan İran və Rusiya ilə birlikdə Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında, eləcə də Avropanın Asiya ilə birləşdirən alternativ nəqliyyat-kommunikasiya layihələrinin qurulmasında yaxından iştirak edir. Həmçinin Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması siyasətini qeyd etmək olar. Bu işdə də Azərbaycan həmişə öncül mövqeyini qoruyub saxlayıb. Həmçinin Cənub Qaz Dəhlizinin çəkilməsi, vaxtilə Avropanın reallaşdıra bilmədiyi "Nabucco" layihəsinin yeni şəraitdə həyata keçirilməsi Azərbaycanın Avrasiyaya verdiyi töhfənin bariz göstəricisidir. Bir sözlə, Azərbaycanı Avropa ilə həm nəqliyyat, enerji dəhlizləri, həm iqtisadi, siyasi, sosial layihələr bağlayır. Ona görə də hesab edirik ki, bu Zirvə toplantısında bizim deməyə sözümüz kifayət qədər çoxdur. Biz, həmçinin bu Sammitdə iştirak edən dövlətlərin rəsmilərinin, müxtəlif ölkələri təmsil edən QHT-lərin nümayəndələrinin, jurnalistlərin diqqətinə Azərbaycan həqiqətlərini, o cümlədən torpaqlarımızın işğal olunması faktını, Ermənistanın dünyada təhlükəsizliyə törətdiyi təhdidləri çatdırırıq.

## Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yeddinci iclası keçirilib



Fevralın 7-də Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yeddinci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov iclasın gündəliyində duran məsələlərdən danışıb. O, iclasın əsas məqsədinin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsi üzrə 2018-ci il ərzində görülən işlər, qarşıda duran vəzifələr, bununla bağlı Azərbaycan Prezidentinə təqdim ediləcək hesabatın təqdimatı və təsdiq edilməsi, həmçinin DİM-lər üzrə Azərbaycan üçün prioritet hesab edilən məqsəd, hədəf və göstəricilərin yekun layihəsinin müzakirəsi və təsdiqi olduğunu deyib.

İclasda bu ilin iyul ayında Yüksək Səviyyəli Siyasi Forumunda Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatının hazırlanmasının cari vəziyyəti də müzakirə edilib. Gündəlikdə duran digər məsələ isə DİM-lərin həyata keçirilməsində özəl sektorun rolu mövzusunda aidiyyəti qurumlarla birgə panel müzakirənin keçirilməsi təşəbbüsü olub. Sonra gündəliyə uyğun təqdimatlar keçirilib. Sonda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə 2018-ci il ərzində görülən işlər, qarşıda duran vəzifələrlə bağlı hesabat təsdiq olunub və onun Azərbaycan Prezidentinə təqdim edilməsi qərara alınıb.

## XİN: Ukraynalı telejurnalistin adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb



Ukrayna vətəndaşı teleaparıcı Nadia Baziv Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş edib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə tam hörmət etdiyini bildirən N.Baziv gələcəkdə Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlərdən çəkinəcəyini müraciətində qeyd edib.

Habelə sözügedən şəxs gələcəkdə ölkəmizə səfər etməsi üçün icazə verilməsini xahiş edib. Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və Nadia Bazivin adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

## "Freedom House" qeyri-obyektiv və bilinməyən metodologiya ilə qiymətləndirmə aparan çirkin qurumdur



**Əli Həsənov, Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini**

Azərbaycan günü-gündən sosial-iqtisadi baxımdan inkişaf etdikcə, beynəlxalq nüfuzunu artırdıqca, dünya birliyindəki mövqelərini gücləndirdikcə uğurlarımızı görmək istəməyənlər ortaya çıxır və hər fürsətdə ölkəmizi, xalqımızı gözdən salmağa çalışırlar. Xüsusilə bəzi xarici dairələr və təşkilatlar ölkəmizdəki reallıqları təhrif etmək, beynəlxalq aləmdə yanlış rəy formalaşdırmaq cəhdlərini davam etdirirlər. Bu cür məkrli əməllərin hansı mənbədən qaynaqlandığı məlumdur: erməni lobbisi və bütövlükdə antiazərbaycançı şəbəkə Azərbaycanın dövlət müstəqilliyinin bərpa edildiyi ilk gündən ölkəmizə qarşı "qara piar" aparmaqla məşğuldurlar. ABŞ-dakı "Freedom House" beynəlxalq hüquq-müdafiə təşkilatının 2019-cu il hesabatında Azərbaycanın Cənubi Qafqazda yeganə "azad olmayan" ölkə kimi qiymətləndirməsi gülünc səslənməklə yanaşı bu təşkilatın qeyri-obyektiv və bilinməyən metodologiya ilə qiymətləndirmə aparan çirkli qurum olmasının bir sübutudur.

- Görəsən "azad olmayan" ölkəni müəyyənləşdirmək üçün göstəriciləri kim və hansı bir beynəlxalq təşkilat kəşf edib?

- Əgər hansısa təşkilat özündən müəyyən göstəricilər uydurubsa ona bu səlahiyyəti kim verib?

- Ümumiyyətlə, belə təşkilatları kimlər yaradıb, maliyyələşdirir və nə üçün?

- Onlara kim ixtiyar verib ki, müstəqil dövlətin daxili işinə müdaxilə etsinlər?

- Belə sualları çox sadalaya bilərəm, ancaq sizlərə elə gəlmirmi ki, hansısa bir dövlət özünü dünyanın sahibi hesab edir?

Mənim üçün çox maraqlıdır!

Görəsən bəzi ölkələrdə vətəndaşlar dövlətinin siyasətinə etiraz olaraq küçələrdə qarşılarına çıxan hər şeyi dağıdanda, maşınları yandıranda binaların 1-ci mərtəbələrindəki obyektləri talan edəndə, iş rejimini kobud şəkildə pozanda, insanların istirahətinə xələl gətirəndə bunun adı nə olur, "azad ölkə"mi?

Bəzi ölkələrdə o, cümlədən ABŞ-da, Avropada polis işçiləri etirazçılara hücum edib onlara ciddi xəsarət yetirəndə, hətta gözlərini çıxaranda və ya etirazçıların gözü qarşısında döyərək ölümcül vəziyyətə salanda bunun adı nədir, "azad ölkə"mi?

"Freedom House" təşkilatı öz çirkin əməlini gizlədə bilməyərək erməni xalqının özu tərəfindən Ermənistanı azad olmayan ölkə kimi qiyətləndirəndə və ya onun Parlamentində spiker və bir neçə deputat güllələnib öldürüləndə, Prezident seçkisində saxtakarlıq edən rəhbərliyə etiraz edən zaman öldürüləndə necə olur ki, belə ölkə "qismən asad" hesab edilir? Elə buradan görünür ki, bu təşkilat sifarişlə işləyən təşkilatdır.

"Freedom House" və bu kimi beynəlxlaq təşkilatlar bilməlidilər ki, ölkəmizdə mətbuat tamamilə azaddır, 80 faiz əhalinin internetə çıxışı vardır, bütün sosial şəbəkələrdən istifadə mövcuddur və heç bir senzura yoxdur. Azərbaycan Respublikasının Prezidetni cənab İlham Əliyevin titanik səyi nəticəsində ölkəmizdə sabitlik, təhlükəsizlik və inkişaf yüksək mərhələdədir. Azərbaycan bu gün bir sabitlik adası kimi məşhurdur. Regionda və dünyada baş verən qanlı münaqişələr, toqquşmalar, müharibələr, risqlər və təhdidlər fonunda ölkəmizdə həyat tərzinə çevrilmiş sabitlik mühiti bizim tarixi nailiyyətimiz və sərvətimizdir. Sabitlik və təhlükəzsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyidir, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın cənab İlham Əliyevə olan inamı, etimadı və etibarı ilə bağlıdır.

Bu cür yersiz və qərəzli hesabatlarla nə ölkəmizə təzyiq etmək, nə də nüfuzunun artmasının qarşısını almaq mümkündür. Bu təşkilatlar insan hüquq və azadlıqlarının qorunmasından danışırsa, ilk növbədə, Ermənistanın işğalçı dövlət olduğunu bəyan etməlidirlər. Bütün bunları görməzliyə vuraraq Azərbaycana qarşı sifarişlə qərəzli mövqe tutmaq nəticə etibarilə onların riyakar mövqeyini ortaya qoyur.

Azərbaycan Respublikası Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun "Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti məmurlara örnəkdir" sərlövhəli 3 qəzet səhifəsi həcmində 2018 -ci ilin yekunu üzrə dərc etdiyi materialı "Freedom House" təşkilatının bizim ölkəmiz barədə ABŞ-da fəaliyyət göstərən erməni diasporasından aldığı vəsait hesabına yazdığı uydurmaya tutarlı cavabdır.

Bu akademik materialı tərcümə edərək həmin təşkilata göndərmək yaxşı olardı ki, görsünlər onların yaşadığı ölkədə ümumiyyətlə dünyanın hansı ölkəsində öz vətəndaşlarına belə münasibət varmı?

## "Ölkə başçısı özünün əməli, işi ilə bunu sübut edir"



"Cənab Prezident İlham Əliyev prezident seçildiyi ilk gündən dedi ki, "Mən hər bir azərbaycanlının Prezidentiyəm və onun yanındayam". Ölkə başçısı özünün əməli, işi ilə bunu sübut edir". Bunu SİA-ya açıqlamasında millət vəkili Elman Məmmədov deyib.

Deputatın sözlərinə görə, cənab Prezident təkcə təbii fəlakətlər zamanı yox, hərbi əməliyyatlar zamanı da, həmçinin əmin-amanlıq dövründə də xalqın yanındadır və onların qayğıları ilə yaxından maraqlanır: "Bu yaxınlarda ölkə rəhbərimizin şəhid ailələrimizlə, əlillərimizlə, məcburi köçkünlərimizlə bağlı görüşləri, hərəkətləri bunu sübut edir. Bu günlərdə də təbii fəlakətlə bağlı cənab Prezidentimizin operativ qaydada verdiyi göstərişlər, sərəncamlar, özünün Şamaxı şəhərinə səfəri, xalqın içində olması onu göstərir ki, ölkə başçımızın bütün fəaliyyəti, siyasəti insanlarımızın, vətəndaşlarımızın təhlükəsizliyinə, əmin-amanlığına, sosial durumunun, maddi-rifahının yaxşılaşmasına yönəlib. Bu, bu gün də belədir və sabah da belə olacaq. Yəni cənab Prezidentimiz bu dediklərimizi özünün fəaliyyəti, hərəkətləri, əməlləri ilə sübut edib. Təbii ki, bütün xalqımız da bunu alqışlayır".

# YAP Gənclər Birliyinin təşəbbüsü ilə "Gənclər və ailə: ənənə və müasir baxış" mövzusunda tədbir keçirilib





***Fevralın 7-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşəbbüsü ilə "Gənclər və ailə: ənənə və müasir baxış" mövzusunda tədbir keçirilib. Tədbirin moderatoru, YAP Gənclər Birliyinin sədr müavini Ramin Məmmədov müasir dövrdə gənclərin ailə məsələlərinə baxışlarının aktual olduğunu bildirib.***

Çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı bildirib ki, ailə cəmiyyətin əssını təşkil edir. Bu gün ölkəmizdə ailə institutunun qorunması prioritet məsələlərdəndir. A.Naxçıvanlı deyib ki, tarixin hər bir mərhələsində ailə cəmiyyətin inkişafında mühüm rol oynayıb. Onun sözlərinə görə, cəmiyyətin inkişafı ailənin rifahından, ailədaxili sağlam mənəvi mühitdən, ailə münasibətlərinin yüksək əxlaqi dəyərlər əsasında təşkilindən çox asılıdır. "Buna görə də cəmiyyət həmişə ailənin möhkəm bünövrə əsasında qurulmasına, inkişafına çalışır. Cəmiyyətin və dövlətin tərəqqisində xüsusi rolu olan ailə öz bütövlüyünü qoruyub saxlayır. Azərbaycan ailəsi dünyada özünəməxsusluğu ilə seçilir. Bizim qədimdən gələn ailə modelimiz var. Mütəmadi aparılan maarifləndirmə işlərinə baxmayaraq, hələ də cəmiyyətdə erkən nikahlar problem olaraq alır. Erkən nikahlarda məişət zorakılığından tutmuş doğuş zamanı ana və uşaq ölümləri, boşanmalar və fiziki psixoloji çətinliklərə rast gəlinir. Eyni zamanda, təhsildən yayınma halları da baş verir. Bu məsələlərin həlli daim diqqət mərkəzində olmalıdır"-deyə, komitə sədri vurğulayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva çıxışında bildirib ki, qloballaşma dövründə dünya ölkələrində ailə institutu tənəzzülə uğramaqdadır. Onun sözlərinə görə, bütün bunların fonunda Azərbaycanda ailə institutu qorunub saxlanılır, insanlar təhlükəsizlik, dostluq, mehribançılıq, tolerantlıq şəraitində yaşayırlar: "Artıq dünyanın bütün ölkə və xalqları Azərbaycanın ailə və mədəni tolerantlıq modelini qəbul edir. Bu gün ölkədə ailə institutunun möhkəmləndirilməsi üçün hansı imkanlar var? İlk növbədə qeyd etmək lazımdır ki, güclü qanunvericilik bazası mövcuddur. Yeni tələblər və ehtiyaclar əsasında bu baza daim təkmilləşir. Bütövlükdə ailələrin sosial rifahını yüksəltmək üçün hökumət mütəmadi zəruri tədbirlər həyata keçirir. İldən-ilə ailələrimizin sosial müdafiəsi güclənir, müxtəlif layihələr reallaşdırılır. Lakin qeyd etməliyik ki, bir çox problemlər hələ də öz aktuallığını saxlamaqdadır. Bu neqativ tendensiyaları aradan qaldırmaq üçün nə edə bilərik? İlk növbədə ailədə valideyn məsuliyyətinin artırılması ən önəmli məsələlərdən biridir. Ailə dəyərlərimizin təbliğində KİV-in, xüsusilə televiziyanın üzərinə böyük iş düşür. Əfsuslar olsun ki, bir çox hallarda sosial-məişət mövzulu proqramlarda yalnız cəmiyyətin neqativ hissəsi nümayiş olunur. Halbuki bizim çox sayda nümunəvi ailələrimiz var. Düzdür, ailələrin problemlərini işıqlandırmaq lazımdır, lakin balans pozulmamalıdır. Ən təhlükəli məsələlərdən biri də internetin, sosial şəbəkələrin görünmədən, lakin çox sürətlə ailələrə daxil olmasıdır. Biz görürük ki, insanlar öz ailə üzvləri ilə müqayisədə virtual məkanda daha çox vaxt keçirirlər. Bu isə insanları bir-birindən uzaqlaşdırır, övlad-valideyn ünsiyyətində soyuqluq yaradır". A.Sofiyeva ailə dəyərlərinin qorunması işində gənclərin üzərinə böyük vəzifələr düşdüyünü qeyd edib.

Tədbirdə həmçinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, YAP Gənclər Birliyinin sədri Seymur Orucov və "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, kulturoloq Fuad Məmmədov çıxış edərək mövzu ilə əlaqədər fikirlərini bildiriblər. Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

# "Prezidentin gənclərlə səmimi görüşü bizim üçün böyük stimul oldu"



"Bu gün müstəqil Azərbaycanda gənclər hərəkatı yeni bir mərhələyə qədəm qoyub. Beləliklə, gənclərimizin müstəqil platformada öz fikir və ideyalarını ifadə etmək şansları yüksəkdir. Artıq gənclərin qarşısına, ideyalarını müstəqil şəkildə həyata keçirmələri üçün heç bir məhdudiyyət qoyulmayıb. Danılmaz faktdır ki, Azərbaycanda gənclər siyasəti Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır". Bunu SİA-ya YAP Suraxanı rayon təşkilatının Gənclər Birliyinin üzvü Ənvər Haqverdiyev deyib.

Onun sözlərinə görə, Azərbaycanda gənclər siyasətinin formalaşması ilə bağlı imzalanmış sərəncamlar, qanunlar və digər qanunverici aktlar, bir daha sübut edir ki, Azərbaycan təkcə Qafqaz bölgəsində deyil, hətta dünyada gənclər hərəkatının inkişafına böyük əhəmiyyət verən dövlətlərdəndir: "Bu gün istər dövlət idarəçiliyində, istərsə də özəl strukturlarda gənclərin fəallığı aydın hiss olunur. Təbii ki, bu fakt bizi çox sevindirir. Müasir gəncliyimizin real vəziyyəti ondan ibarətdir ki, onlar əvvəlki dövrün gəncləri ilə müqayisədə daha effektiv ideyalarla çıxış edirlər. Bu gün geniş informasiya mübadiləsinin aparılması gənclərimizə daha geniş imkanlar yaradır.

Qeyd edim ki, mən də, bir qrup gənclə birlikdə bu günlərdə "Bakı Konqres Mərkəzi"ndə Azərbaycan Gənclər Gününə həsr olunmuş Respublika Toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə görüşdə iştirak etmişəm. Tədbirlə bağlı təəssüratlarım zəngindir. Cənab Prezidentin gənclərlə səmimi görüşü bizim üçün böyük stimul oldu. Cənab Prezidentin gənclərlə səmimi, dost kimi dialoq formasında nitqini qurması, böyük səmimiyyətlə öz gənclik illərini xatırlaması və o dövrlərdə gəncliyin qarşılaşdığı çətinlikləri bugünkü gəncliyin nəzərinə çatdırması böyük əhəmiyyətə malik hadisə oldu. Azərbaycan gənclərinin böyük imtiyazlara malik olduğunu qeyd edən Cənab Prezident, gənclərin qarşısında konkret vəzifələr qoyaraq, Azərbaycanın gələcək inkişafının gənclərin əlində olduğunu xüsusi vurğuladı. Biz ölkəmizi dünya dövlətləri arasında nüfuzlu bir ölkəyə çevirən Prezidentimizlə fəxr edirik".

***Ceyhun Rasimoğlu***



# "Azərbaycan gəncləri böyük uğurlar qazanıb"

"Bu gün qloballaşan cəmiyyətdə Azərbaycan gəncinin öz milli-mənəvi dəyərlərini nə vaxtsa itirməsi mümkün olan hal deyil. Çünki Azərbaycan tarixən tolerant və multikultural ölkə kimi tanınıb. Biz bilirik ki, müasir dövrdə bütün dünya ölkələri multikulturalizm modelindən imtina etsələr belə bu gün Azərbaycanın multikultural modeli bir çox dünya dövlətləri üçün nümunə sayıla bilər. Belə bir tarixi köklərə malik olan bir xalqın gənci hansı ki, illər boyu dilindən, dinindən və irqindən asılı olmayaraq müxtəlif insanlarla bir toplumda yaşayıb və onlarla birliklikdə fəaliyyət göstərib". Bunu SİA-ya YAP Pirallahı rayon təşkilatının Gənclər Birliyinin üzvü Günel Məmmədova deyib.

Onun sözlərinə görə, bu fəaliyyət çərçivəsində nə bizim milli etnik dəyərlərimiz, nə də digər xalqların etnik dəyərlərinə qarşı heç bir zaman hansısa bir bərabərsizlik yaşanmayıbsa, bu zaman Azərbaycan gənci qloballaşan dünyada da öz milli-mənəvi dəyərlərini heç zaman unuda bilməz: "Xüsusən də onu vurğulamaq istəyirəm ki, qloballaşan dövrdə sosial şəbəkələr biz gənclərin demək olar ki, ayrılmaz hissəsinə çevrilib.

Təəssüflə də olsa, bildirək ki, aramızda dar düşüncəli gənclərə də rast gəlinir. Sosial şəbəkələrdə sakitliyi pozmağa cəhd etmək niyyətində olan şəxslərə təsadüf edirik. Bizim yaşadığımız cəmiyyətdə belə gənclər say baxımından az faiz təşkil edirlər. Təbii ki, Azərbaycan dövlətçiliyini və müstəqilliyini dəstəkləyən gənclərlə müqayisədə onlar nəzərə çarpmır. İnkişaf olan yerdə problemlərin yaşanılması mümkündür. İnanıram ki, yaxın gələcəkdə həmin gənclər əqidə sahibi olaraq, vətənə xidmət edəcəklər. Hər hansı bir gənc ambisiyasına və məqsədinə görə səhv addımlar ata bilər. Amma dövlətə, millətə və vətənə qarşı səhv addım atmaq qeyri-mümkündür. Bu məqsədlə, dövlətə xəyanət məqsədilə atılan addım gəncləri fəlakətə sürükləyə bilər. Bu gün Azərbaycan gəncləri böyük uğurlar qazanıb. Dövlətin dəstəyi ilə qazanılan uğurlar Azərbaycanın nailiyyətləridir. Gənclərimiz inkişaf edib və onların intellektual potensialı yüksəlib. Gənclərimiz Cənab Prezidentin tövsiyəsi əsasında öz bilik və bacarıqlarını genişləndirməli, müasir dövrün tələblərinə uyğun olaraq, formalaşıb, ölkəmizin inkişafına töhfə verməlidir".

# İranın turizm firmaları ölkəmizə səfərlər təşkil etmək üçün rəqabət aparır



Novruz bayramı ərəfəsində İran vətəndaşlarının ölkəmizə səfərlərini təşkil etmək üçün bu ölkədəki turist firmaları rəqabət aparmağa başlayıb. AZƏRTAC xəbər verir ki, Tehranda fəaliyyət göstərən "Tours. select" və "Offer.select" portallarının instaqram platformalarında Azərbaycan haqqında videoçarx yerləşdirilib. Videoçarxlarda Bakı və Azərbaycanın turizm məkanları əks olunub. Çoxsaylı izləyicisi olan platformalarda yerləşdirilən videoçarxlar böyük marağa səbəb olub. Qısa zaman ərzində "Tours. select"in instaqram platformasında videoçarxı 72 min, "Offer.select"in instaqram platformasında isə 45 min insan izləyib.

# "Azadlıq nəğməsi"nin sorağında...

***Qarşımda yazıçı-publisist Sabir Şahtaxtının "Azadlıq nəğməsi" romanıdır. Açığını deyim, birnəfəsə oxuduğum bu romanı bilmirəm, məhəbbət dastanı adlandırım, yaxud milli-azadlıq hərəkatımızın salnaməsimi?!***

Əsərin qəhrəmanları Şahvə ilə Şölənin ülvi məhəbbətindən bəhs edən bu əsərdə müəllif sovetlər dönəmində yaşayan zəngin bir ailənin acı taleyini canlandırmaqla xalqımızın dəyərlərini, dövlətçiliyimizə olan sədaqəti, özünüdərk proseslərinin əhəmiyyətini təsvir etməyə nail olub. Vaxtilə nazir müavini işləyən Şölənin atasının milli azadlıq hərəkatına başlayan xalqa dəstək verməsi, qardaşının Qarabağ müharibəsində həlak olması, Şahvənin cəbhədən yarımcan dönməsi Şöləyə sarsıdıcı zərbələr vurur. Hələ bu azmış kimi, oğul itkisinə dözməyən valideynlərini də itirən Şölə bütün ümidini Şahvəyə bağlayır.

Müəllif əsər boyu oxucunu macəra xarakterli hadisələrlə üzləşdirməklə, vətən fədaisi olan bu iki gəncin saf məhəbbəti kontekstində milli azadlıq hərəkatında baş verən bir çox qaranlıq məqamlara aydınlıq gətirməklə ən müasir tariximizdə baş verənləri obrazlı şəkildə təsvir edir. Əsərdə baş verən ayrı-ayrı hadisələr dövlətçilik uğrunda aparılan milli varlığımızın əsası kimi oxucuya çatdırılır.

Ümumiyyətlə, xüsusi olaraq vurğulamaq istəyirəm ki, Sabir Şahtaxtı yaradıcılığında hadisələrə dərindən yanaşmaq, ayrı-ayrı epizod və faktları özünəməxsus ustalıqla təsvir etmək məharəti diqqəti cəlb edir. Onun əsər boyu bir çox epizodla etdiyi təsvirlər həm bilik səviyyəsinə, həm də dolğunluğuna görə cəlbedicidir.

Şəxsən mən bu vaxta qədər Naxçıvanda olsam da, Şahtaxtı kəndini görmək qismətini hələ ki yaşamamışam. Amma bu əsəri oxuduqdan sonra belə deməzdim. Müəllif əsərdə doğulub boya-başa çatdığı Şahtaxtı kəndindən Şahvənin baba yurdunu o qədər canlı təsvir edir ki, adama elə gəlir, bu kənddə olub və elə həmin imarətdə doğulub və böyüyüb. Bu səhnə məndə belə bir təəssürat yaradır ki, Şahtaxtının yosununu qoxulayıb, qaynar bulaqlarında bitən yarpızdan dadmışam, çeşmələrdən doyunca su içmişəm, həyətlərindəki təndiri gözlərimlə görmüşəm, təbrizli ustaların böyük həvəslə işlədikləri naxışlı qapıları milyon dəfə açıb-örtmüşəm. Müəllif, sözün həqiqi mənasında, bütün bunları obrazlı və yaddaqalan ştrixlərlə təsvir etməyi bacarıb.

Yaxud, elə götürək, müəllifin Sinqapurdan verdiyi təsvirlərini. İndiyədək heç Sinqapur barədə düşünməmişdim və bu ölkə barədə hər hansı təsəvvürüm də yox idi. Məhz müəllifin bu əsərdə Sinqapur barədə, onun iqtisadiyyatı, inkişafı, oradakı insanların yaşam tərzi və s. verdiyi səlis məlumatlar fonunda bu ölkəni az qala sevmək istəyirsən. Ən önəmlisi odur ki, Sabir Şahtaxtının bu təsvirləri milli xarakterdə əsl müasir nəsr dili ilə oxucuya çatdırılmışdır. Müəllifin oxucunu qəhrəmanlarının ardınca Sinqapura dartıb aparması təsadüfi deyildir. O, bütün bu proseslərin fonunda milli şüurun qüdrətini, elmli, əsl mütəxəssis olmağın gücünü nümayiş etdirir.

Müəllifin yaradıcılıq üslubunda bir cəhəti də qeyd etmək yerinə düşər. Onun hadisələri təsvir etməsində bir




orijinallıq mövcuddur. Necə ki, məhəbbət səhnələrini nə qədər gözəl, abırhəya çərçivəsində tərənnüm edirsə, sanki artıq bir söz və ifadə işlətməkdən də çəkinir. Yazıçı oxucusunu faciəli ölüm səhnələrində sarsıtsa da, sonradan onu bu ağır iztirablardan müdafiə edə bilir. Bütün bunlar onun oxucu ilə səmimi münasibətdə olmasının göstəricisidir.

Sabir Şahtaxtının qələmində gördüyüm və qeyd etməyi vacib saydığım bir məqam daha var. Bu da onun nəsr dili və üslubudur. Açığını deyim, son dövr ədəbiyyatında çatışmayan ən başlıca cəhət bədii dilin -nəsr dilinin publisistik dillə əvəz olunması prosesinə keçid məsələsidir. Yəni, bu iki janrın dili olduqca fərqlidir. Hesab edirəm ki, yazıçı ilk olaraq buna riayət etməlidir. Məncə, Sabir Şahtaxtının nəsr dili Azərbaycan ədəbiyyatının 1930-1950-ci illərdəki üslubuna çox yaxındır. Dolğun cümlələr, geniş və əhatəli təbiət təsvirləri, hər hansı predmetə bədii münasibət və s. Müəllifin yüksək intellekti, vətən sevgisi, torpağına və xalqına bağlılığı haqqında bəhs etdiyim əsərin hər bir sətrində ifadə olunur. Məsələn: "Payız əlləri ilə ləçəkləri tumarladı. Çətinliklə də olsa, onları burnuna yaxınlaşdırıb güldü və geri qaytardı. Şölə gülləri ondan alıb suya qoymaq üçün yana çəkiləndə Payızın qopardığı haraydan dik atıldım. O məni görmüşdü. Şaqqıltı ilə gülür, əllərini havada oynadırdı. Sağ əlinin baş və şəhadət barmaqları arasında bir mavi zanbaq, qıpqırmızı qızılgül və yamyaşıl bir yarpaq qalmışdı". Bu ifadədə həm yüksək bədii təsvir, həm də üçrəngli bayrağımıza tükənməz sevgi mövcuddur. Diqqət edin, yazıçıda milli düşüncə o qədər zəngindir ki, o, hətta əşqinə qovuşa bilməyib əlil arabasında iztirablar yaşayan gənc qızın əlində qalan yarpaq və ləçəklərdən də bir bayraq ucalda bilir.

Müəllif bu əsərə əvvəlcə "Əkizlərin azadlıq nəğməsi" adını vermişdi. Bu, Şahvə ilə Şölənin əkiz övladlarının şərəfinə adlandırılmışdı. Sonradan romanın adı sadəcə "Azadlıq nəğməsi" oldu. İlk baxışda sadə görünən bu adın da arxasında həqiqəti əks etdirən böyük məna, anlam dayanır. Yəni, xalqımızın başına gətirilən bu qətliam və müsibətlərdən sonra müstəqilliyə qovuşma hissi təkcə əkizlərin deyil, bütün Azərbaycanın azadlıq nəğməsini tərənnüm edir. Şübhəsiz ki, müəllif əsərini "Azadlıq nəğməsi" adlandırmaqda haqlıdır. Məncə, bu yerdə əsərdən kiçik bir parçaya müraciət etmək fikrimizi təsdiqləyər: "...Elə o andaca gözlərim önündə geniş bir bağ canlandı. Onu Abşeron bağlarının əhatəsində salmışdım. Bağçada hər nə vardısa, özüm əkmişdim. Həmin gündən başlayaraq, xəyalən bu bağçada çalışır, milli hisslərimin qəlbimə hökm etdiyi məqamlarla təbiətə gözəllik verirdim. Darvazadan içəri girəndə sağ tərəfdə yeddi ağac əkmişdim. Əvvəlki yerdəki "A" (Əlif-?) hərfini Gəncə, Ərdəbil və Naxçıvan armudlarının şivlərindən vurduğum peyvənddən alınan ağac yaşadırdı. Uzandıqca uzanırdı səmaya doğru bu ağac. Özü də heç bir fəsildə masmaviliyini itirmirdi. Ağacın gövdəsi də, yarpaqları da aydın, gömgöy səma rəngində idi. Sanki uca göylər öz təbii rənginə boyamışdı onu. İkinci yerdəki "Z"-ni (Ze -?) əyri bir zeytun ağacı əvəzləyirdi. Bu zeytunun öz rəngləri peyvənd armudun gömgöy rənginin kölgəsində də masmavi görünürdü. Üçüncü yerdəki əlif (?) çox enli bir Quba alması ağacıydı. Qızıl payız rəngində bərq vururdu, o. "D" (Dal-?) hərfinin yerində Zəncanmeşələrindən gətirdiyim bir dəmirağacı əkmişdim. O da qıpqırmızı görkəmdəydi. Nəhəng lalə və qızılgül kolları isə bir-birinə sarmaşaraq "L" (Lam-?), "I" (ya-?) və "Q" (Qaf-?) hərf birləşmələrinin formasını almışdı. Özü də bu kolların üstündəki gül-çiçək də öz yarpaqları kimi yaşıl rəngdəydi. Dəmirağacın budaqları arxa tərəfdən şaxələnib əzəmətli bir şəkildə "Azadlıq" (???????) görkəmi yaradan bu sıranı mətinliklə şimal küləyindən qoruyurdu. Boş vaxtlarımda, əsasən düşkün olanda bu ağac sırasının qarşısında dayanıb onların bir-birinə toxunaraq tumarlanmaqdan aldığı ləzzəti seyr edib yaşamağa ruhlanırdım. O anlar mənə elə gəlirdi ki, ağaclar da insanlar kimi sevib-sevilməyi bacarırlar. Ona görə də bir-birilərinə can atır, gözoxşayan şivlərinin ucu ilə toxunub bir-birilərinə tumar çəkirlər."

... Əsərin qəhrəmanları Şahvə və Şölə azadlıq aşiqləridir. Onlar əsər boyu əl-ələ tutub "Azadlıq!" nəğməsini oxuyurlar. Bu nəğmənin sözlərinə həmmüəllif olduqları kimi, onun musiqisini də birlikdə bəsdələyiblər. Müəllif isə böyük ədəbi ustalıqla qəhrəmanlarınımənfi təsirlərdən məharətlə qoruya bilib. Bu yerdə üsyankar şair İmadəddin Nəsiminin dünyaca məşhur olan ifadəsini xatırlayıram: "Zərrə mənəm, Günəş mənəm!" Bəli, Şahvə Azərbaycanın müstəqilliyi yolunda canını fəda edən milyon zərrədən biridir. Şölə isə hər zaman qürur mənbəyimiz olan fədakar, əxlaqlı, yenilməz, vətəninə və ailəsinə açılmaz düyünlərlə bağlı olan Azərbaycan qadınının üstünə Günəş şəfəqləri çiləyib zirvələri fəth edən obrazıdır.

Oxucularına belə gözəl bədii əsər bəxş etdiyi üçün qələm dostum Sabir Şahtaxtını ürəkdən təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayıram. Həm də ürək dolusu "Çox sağ ol!" - deyirəm.

Bir dəfə Sabirdən soruşdum ki, "Azadlıq nəğməsi"ni bioqrafik roman hesab etmək olarmı?". Sualıma çox səlis cavab verdi: "- Mən Azərbaycan üçün canını verməyə hazır olan iki gəncin qəhrəmanlığını tərənnüm etmişəm. Xalqını sevən, dövlətin nə demək olduğunu anlayan, vətənə bağlı olan hər kəs "Şahvə mənəm", "Şölə mənəm", - deyib öyünə bilər.

P.S. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə ithaf olunan "Azadlıq nəğməsi" İstanbulda Anadolu türkcəsində, İranda isə farsca çapa hazırlanır. Əsərin Azərbaycan nəşrinə ön sözü tanınmış yazıçı Əlabbas yazıb. İstanbul versiyasının ön söz müəllifi görkəmli alim, professor Aygün Əttar, tərcüməçisi, tanınmış yazıçı-publisist Mətin Yıldırımdır.

***Aydın AĞAZADƏ***
***"525-ci qəzet"in Türkiyə müxbiri***
***İstanbul***

## DSX dövlət sərhədinin təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirləri uğurla davam etdirir



Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin təhlükəsizliyinin təmin olunması sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirlərini davam etdirir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, son günlər Xidmətin əməkdaşlarının sayıqlığı və peşəkarlığı dövlət sərhədini pozmağa cəhd göstərən Şri-Lanka (2), Özbəkistan (1), Azərbaycan (1), həmçinin dövlət sərhədinin pozulması ilə əlaqədar cinayətlərin iştirakçısı olan Şri-Lanka (1) və Azərbaycan (3) vətəndaşlarının saxlanılmasını təmin edib.



Yanvarın 15-də Heydər Əliyev Beynəlxalq Aeroportunda "Bakı-London" reysi ilə uçmağa hazırlaşan Şri-Lanka vətəndaşları 1972-ci il təvəllüdlü Subramaniyam Rasenthiram və 1999-cu il təvəllüdlü Siththirasekaram Panusam sənədlərin rəsmiləşdirilməsi zamanı təqdim etdikləri Böyük Britaniyaya məxsus vizalarının saxta olması ilə əlaqədar saxlanılıblar. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxta sənədlərin əldə olunması, düzəldilməsi, istifadəsində şübhəli bilinən Şri-Lanka vətəndaşı, 1982-ci il təvəllüdlü Sivangnanam Kirusanthan və onunla əlbir olan Azərbaycan vətəndaşları, 1986-cı il təvəllüdlü Mövlayev İlqar Dilqəm oğlu, 1983-cü il təvəllüdlü Ağalarov Ramazan Mirtalıb oğlu və 1993-cü il təvəllüdlü Piriyev Şahin Əhmədağa oğlu saxlanılıblar.

Yanvarın 18-də Şəmkir rayon sakini, 1990-cı il təvəllüdlü Alıoğlu Orxan Famil oğlu DSX Sərhəd Qoşunlarının "Xudat" sərhəd dəstəsinin xidməti ərazisində Qusar rayonunun Samur qəsəbəsinin ərazisindəki sərhəd zastavasının xidməti sahəsində Azərbaycandan Rusiya istiqamətində dövlət sərhədini pozmağa cəhd edərkən sərhəd pozucusu qismində yaxalanıb.

Yanvarın 20-də isə həmin ərazidən və eyni istiqamətdə dövlət sərhədini pozmağa cəhd edən Özbəkistan vətəndaşı, 1951-ci il təvəllüdlü Nurmaxammadov Ramazon Nurmahammad oğlu sərhəd pozucusu qismində saxlanılıb. Hər iki şəxsin üzərində Rusiya Federasiyasından deportasiya olunması barədə arayışlar aşkarlanıb. Saxlanılan şəxslər barəsində cinayət işi başlanılıb və müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Özbəkistan mətbuatı Naxçıvan yallısından yazıb

Özbəkistanın uchildiz.uz portalında "Naxçıvan yallısının Azərbaycanın musiqi mədəniyyətindəki yeri" adlı geniş məqalə yerləşdirilib. AZƏRTAC xəbər verir ki, rus dilində yazılan məqalədə Naxçıvan yallısının qədim tarixinə nəzər salınır, onun qədim tarixin, zəngin mədəniyyətin göstəricisi olduğu vurğulanır.

Materialda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən "Yallı" Şərur rayon Rəqs Ansamblının fəaliyyətinə də diqqət çəkilir, yallının Azərbaycan mədəniyyətinin xüsusi reyestrinə daxil edildiyi və ölkəmizin regionları üzrə yallı rəqsinin yayılması, inkişaf arealı xüsusi qeyd edilir.

Bildirilir ki, qədim kollektiv rəqsi olan yallı xoreoqrafiya, vokal və instrumental musiqini özündə birləşdirir. Yallı rəqsi Gəmiqaya arxeoloji abidələrində əks edilib. Məqalədə vurğulanır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan yallısını "Naxçıvanın tacı" adlandırıb. Hazırda Naxçıvan toylarında ifa edilən yallının bu diyarda 100-dən çox növü var. "Qazı-qazı", "Qaladan-qalaya","Köçəri","Çınqı-çınqı", "Ağıryallı", "Xalq yallısı", "Şəruri", "İki ayaq", "Üç ayaq", "Urfani", "Xələfi", "Ərzumani" və digər yallı növləri Naxçıvanda daha çox populyardır. Yazıda Naxçıvan yallısı ilə yanaşı, Qarabağ, Zəngilan, Qazax, Salyan, Şirvan, Şəki və Cənubi Azərbaycanda ifa edilən yallılar haqqında da söhbət açılır.

***Ümumiyyətlə, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri məhz ölkənin iqtisadi potensialının gücləndirilməsi və vətəndaşların sosial rifahının yüksəldilməsidir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasətin mərkəzində insan amilinin dayanması vətəndaşlarımızın sosial vəziyyətinin gündən-günə yaxşılaşmasına xidmət edir.***

# İşsizlərin “DOST” arxalanacağı



Ölkə başçısının tapşırıqları əsasında Azərbaycanda işsizliyin aradan qaldırılması, məşğulluğun təmini və bu istiqamətdə layihələr daha da genişləndirilməkdədir. Görülən işlərin nəticəsidir ki, son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən açıqlanan məlumata görə, 2018-ci ildə aktiv məşğulluq tədbirləri nəticəsində 51,774 min nəfər işlə təmin olunub. Bu da 2017-ci illə müqayisədə 8,1 faiz çoxdur. Ötən il 7267 nəfər özünə məşğulluğa cəlb olunub ki bu da 2017-ci illə müqayisədə 6.5 dəfə çoxdur. Görülən tədbirlər bununla yekunlaşmır Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq məşğulluqla bağlı yeni “İşsizin dostu” proqramına başlanılıb. Bəs görəsən bu proqramın icrası kimləri və necə işlə təmin edəcək?

## “16 minədək işsiz vətəndaş işə cəlb olunub”



Layihə haqqında ətraflı məlumat verən Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü əsasında hazırlanan “İşsizin Dostu” proqramının cari ilin əvvəlindən icrasına başlanılıb: “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyinin) “DOST İş Mərkəzi” tərəfindən proqram çərçivəsində respublikamızın rayon və şəhərləri üzrə artıq 16 minədək işsiz vətəndaş əmək müqaviləsi əsasında ödənişli ictimai işlərə cəlb olunub” .

## “Proqramda həssas qruplardan olanlara üstünlük verilir”

Prezident İlham Əliyevin “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransdakı çıxışında iş yerlərinin yaradılmasının prioritet məsələlərdən biri olduğunu qeyd etdiyini xatırladan mətbuat xidmətinin rəhbəri söyləyib ki, “İşsizin Dostu” proqramı haqqı ödənilən ictimai işlərin təşkili işlərinin sistemli və şəffaf şəkildə qurulmasına və genişləndirilməsinə xidmət edir: “Proqram çərçivəsində ictimai işlərə cəlb olunan vətəndaşlar rayon (şəhər) məşğulluq mərkəzlərində iş axtaran və ya işsiz kimi qeydiyyatda olan şəxslər arasından müəyyən edilirlər. Bu zaman həssas qruplardan olanlara (əlilliyi olanlara, məcburi köçkünlərə, şəhid ailəsi üzvlərinə və b.) üstünlük verilir. “Məşğulluq haqqında” qanuna əsasən, haqqı ödənilən ictimai işlər işsiz şəxslərin müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə təşkil edilir və bu iş yerləri ilkin peşə hazırlığının olmasını tələb etməyən ictimai faydalı xarakter daşıyırlar. Ödənişli ictimai işlərə sosial xidmətlərin göstərilməsi, təmir, abadlaşdırma, ərazilərin ekoloji sağlamlaşdırılması, o cümlədən yaşıllaşdırma işləri, parklara, ictimai yerlərə qulluq və digərləri daxildir”.

## “Əməkhaqqı “DOST İş Mərkəzi” tərəfindən ödənilir”

Mətbuat xidmətinin rəhbəri diqqətə çatdırıb ki, proqram çərçivəsində ictimai işlərə cəlb olunanların hər biri ilə əmək müqaviləsi bağlanılır: “Müqavilə nazirliyin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində qeydiyyatdan keçirilərək rəsmiləşdirilir. Bu da həmin şəxslərin sosial sığorta sistemində qeydiyyata alınmaqla, gələcəkdə pensiya hüquqlarının yaranmasına əsas yaradır, yaxud mövcud fərdi hesablarında pen-



siya kapitallarını artırmalarına imkan verir. Onlara əməkhaqqı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “DOST İş Mərkəzi” tərəfindən ödənilir və işlərin xarakterindən, əmək funksiyasından asılı olaraq əmək haqqı müəyyən olunur. İşçinin sosial sığorta, habelə işsizlikdən sığorta ödənişləri də “DOST İş Mərkəzi” tərəfindən həyata keçiriləcək”.

## “İşlə təmin olunanlar arasında qadınlar çoxluq təşkil edir”

Proqramın builki hədəflərindən söz açan F.Talıblı vurğulayıb ki, bu il belə işsizlərin 30 minini işlə təmin etmək nəzərdə tutulur: “İşsizin Dostu” proqramı icrası üçün nəzərdə tutulmuş vəsait cari ildə 30 minədək işaxtaran və ya işsiz kimi qeydiyyatda olan şəxsin ödənişli ictimai işlərə cəlb edilməsinə imkan yaradıb. Artıq yanvar ayında 16 minədək işsiz vətəndaş bu işlərə cəlb edilib. Layihə çərçivəsində işlə təmin olunan şəxslərin 3 mini Bakı şəhərində qeydiyyatdadır. Yaş həddi 18-65 arasındadır və qadınlar çoxluq təşkil edir”.

Xidmət rəhbəri qeyd edib ki, proqram çərçivəsində əmək müqaviləsi işçi ilə 1 illik bağlanır və müvəqqəti xarakter daşıyır: “Gələcəkdə isə işçinin istəyindən asılı olaraq müqavilə müddəti artırıla bilər. Bu işçilər günün bir hissəsi, yaxud həftənin müəyyən günlərində işləyir”.

## “İşsizin Dostu” vətəndaşların iş axtarmasını asanlaşdıracaq”



Proqramın əhəmiyyəti haqqında fikirlərini bildirən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev deyib ki, son dövrlərdə Azərbaycan prezidentinin tapşırığı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində mütərəqqi proqramlar hazırlanaraq həyata keçirilir ki, onlardan da biri neçəsi məşğulluqla bağlıdır: “Özünə məşğulluğun təmin olunması, “İşsizin Dostu”, eyni zamanda ictimai işlərə vətəndaşların cəlb olunması və digərləri müasir proqram olmaqla yanaşı, vətəndaşla işəgötürən arasındakı münasibətləri tezləşdirmək, hüquqi müstəvidə qurmaq, vətəndaşın öyrəndiyi müvafiq peşəyə yiyələnmək, yaxud da yeni peşə öyrənməsi üçün şəraitlərin yaradılması ilə bağlıdır. “İşsizin Dostu” vətəndaşların iş axtarması asanlaşdıracaq, onlara elektron formada müxtəlif səpkidə işlə təmin olunmaq təklifi olunacaq ki, bunun da nəticəsində işsizlərin ictimai işlərə cəlb olunması aktivləşəcək. Vətəndaşlarımızın məşğulluğunun qısa müddət ərzində onların arzuladıqları şəkildə reallaşmasına imkan yaradacaq”.

## “İnsanların proqramla əlaqədar məlumatlanması üçün maarifləndirməyə ehtiyac var”

Komitənin sədr müavini söyləyib ki, iş axtaran şəxslərin proqramla yaxından tanış olması üçün maarifləndirmə işləri aparılacaq: “İnsanlar informasiya texnologiyaları əsrində yaşadığımızı və informasiya almaq üçün geniş imkanlara malik olduğumuzu bilməlidir. İşsiz şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin saytına daxil olmaq, eləcə də kütləvi informasiya vasitələrinin köməyi ilə vaxtaşırı aparılan maarifləndirmə proqramları vasitəsilə məlumatlana bilərlər. Amma bütün bunlarla yanaşı, müvafiq dövlət orqanları yerlərdə insanlara proqramla bağlı izah və geniş məlumat verməlidirlər. Dövlət tərəfindən, beynəlxalq təşkilatlar tərəfindən maliyyələşən əmək və məşğulluq sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlar var ki, onlar da bu sahədə daha da fəal olmalıdırlar”.

## “Məşğulluğun artırılması evliliklərin, dünyaya gələn uşaqların sayını artırır”

Proqramın sosial tərəflərinə gəlincə sosioloq Cavid İmamoğlu vurğulayıb ki, əhalinin rifah halına təsir edən başlıca amillərdən biri məşğulluqdur: “ Xüsusilə də gənclər arasında məşğulluğun artırılması, onların inkişafında müstəsna rol oynayır. Xüsusilə də regionlarda məşğulluq sahəsində resursların artırılmasına ehtiyac var idi. Çünki, 18 yaşına çatan gənc məşğulluğunu təmin etmək üçün Bakıya gəlmək məcburiyyətində qalırdı. Ona görə də işsizliyin aradan qaldırılması, məşğulluğun artırılması, insanların güzəranının daha da yaxşılaşmasına xidmət edən layihələr ümumilikdə rifahın artırılmasına xidmət edir. Məşğulluq varsa, ölkədə sosial rifah da yuxarı qalxır. Bu da öz növbəsində evliliklərin, dünyaya gələn uşaqların sayına, nəticə etibarı ilə ölkədə cəmiyyətin formalaşmasına, ailə dəyərlərinin qorunmasına, zorakılıq hallarının azalmasına gətirib çıxarır”.

## “Məşğulluq idarələri iş axtaranla işəgötürən arasında körpü rolunu oynamalıdır”

Sosioloq söyləyib ki, ölkənin, cəmiyyətin inkişafı məşğulluq institutundan asılıdır: “Bu baxımdan məşğulluğun artırılmasına xidmət edən bütün proqramlar Azərbaycan gəncliyinə uğurlu gələcək, dövlətimizin təməl prinsiplərini daha da möhkəmləndirir. Ümumiyyətlə, məşğulluğun artırılması üçün iş yerləri haqqında məlumatlılıq olmalıdır. İşsiz şəxs iş yerləri haqqında informasiya əldə etməlidir. Bununla bağlı məşğulluq idarələrinin fəaliyyəti gücləndirilməlidir ki, onlar iş yerləri ilə əlaqədar əhalini məlumatlandırsınlar. Yalnız bu halda, insanların resurslara əlçatanlığı təmin oluna bilər. Misal üçün regionlarda vakansiya boşluğu ilə əlaqədar həmin rayonun məşğulluq idarəsinə məlumatlar ötürülməli, məşğulluq idarələri də iş axtaranla işəgötürən arasında körpü rolunu oynamalıdır”.

## “İşlə təmin olunmaq istəyən şəxslər bacarıqlarını artırmalıdırlar”

Bu gün ölkəmizdə məşğulluğun artırılmasına xidmət edən amillərdən birinin orta ixtisas müəssisələrinin təhsil keyfiyyəti ilə bağlı olduğunu qeyd edən C.İmamoğlu bildirib ki, işlə təmin olunmaq istəyən şəxslər öz bacarıqlarını texnikum və ya peşə məktəbləri vasitəsilə artırmalıdırlar: “Dövlət idarələri və özəl şirkətlərində vakansiya məhdud olduğu üçün bu müəssisələr bütün iş yerlərini təmin edə bilməz. Bu baxımdan da iş axtaran şəxs öz bacarığı ilə özünə məşğulluq proqramlarından istifadə edə bilər. Bu baxımdan orta ixtisas və peşə məktəblərində təhsil o qədər yüksək olmalıdır ki, orada təhsil alan heç olmasa öz bacarığı ilə kiçik biznes aça bilsin. Kompleks tədbirlər nəticəsində biz məşğulluqla bağlı ciddi irəliləyiş əldə edə bilərik”.

***Nailə Məhərrəmova***

# Azərbaycanın möhtəşəm inkişafı anti-azərbaycançı, ermənipərəst dairələri narahat edir və onlar məhz radikal ünsürlər vasitəsilə ölkəmizdə sabitliyi pozmağa cəhd göstərirlər

*Milli Məclisin deputatı Tahir Süleymanovun yap.org.az-a müsahibəsi*

***-Bu gün dünyanın ayrı-ayrı regionlarında xaos və dağıdıcı proseslərin hökm sürdüyü bir zamanda dinamik inkişaf yolunda əmin addımlarla irəliləyən Azərbaycan sabitlik adası kimi çıxış edir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir...***

-Hazırda dünyanın mənzərəsi ilk növbədə inkişafa və sabitliyə ciddi təhdidlər yaradan ziddiyyətli məqamlarla diqqəti cəlb edir. Qlobal miqyasda müşahidə olunan iqtisadi və siyasi kataklizmlər, milli-dini zəmində tez-tez baş qaldıran münaqişələr, Yaxın Şərqə "ixrac" edilən müharibələr son nəticədə ayrı-ayrı ölkələri gücdən salır, onların öz potensiallarını inkişafa yönəltmələrinə imkan vermir. Biz görürük ki, sabitlik pozulanda xarici müdaxilə baş verir, dövlətlər idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Belə vəziyyətdə, təbii ki, insanlar, əlaxüsus da uşaqlar, qadınlar, yaşlılar sonsuz məşəqqətlərlə üzləşirlər.

Yaxın-uzaq coğrafiyalardakı belə arzuolunmaz vəziyyətlə müqayisədə müstəqil Azərbaycanın mənzərəsi tamam fərqli rakursdan diqqəti cəlb edir. Ölkəmiz Prezident İlham Əliyevin inamla reallaşdırdığı məqsədyönlü siyasət sayəsində sabitlik və inkişaf adası kimi fərqlənir. Ölkəmizdə dövlət başçısının qətiyyəti sayəsində daxili risklər aradan qaldırılıb, eyni zamanda, Azərbaycan xarici risklərdən də özünü qoruya bilib, bu gün də qoruyur və heç bir şübhə yoxdur ki, bundan sonra da qoruyacağıq.

Davamlı sabitlik Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı baxımından fundamental amil qismində çıxış edir. Hər bir ölkə məhz sabitlik və təhlükəsizlik şəraitində iqtisadi potensialından səmərəli şəkildə istifadə edə və insanların rifah halının yaxşılaşması üçün davamlı tədbirlər həyata keçirə bilər. Müstəqil Azərbaycan özünün dinamik inkişafını məhz sabitlik və təhlükəsizlik şəraitində təmin edir. Biz ölkə daxilində sabitliyin yüksək səviyyədə təmin edildiyi Azərbaycanda daim yeni inkişaf paradiqmalarının müəyyənləşdirildiyinin və qarşıya qoyulan hədəflərə çatmaq üçün güclü siyasi iradə sərgiləndiyinin, maddi dəstək tədbirlərinin görüldüyünün şahidi oluruq. Son 15 ildə respublikamızda iqtisadi məsələlərə xüsusi diqqət yetirilib, neft gəlirlərindən səmərəli istifadə etməklə ölkənin iqtisadi potensialının artırılmasına yönələn məqsədyönlü siyasət həyata keçirilib, bütövlükdə milli iqtisadiyyatın və onun ayrı-ayrı sektorlarının inkişafını təmin etmək məqsədilə genişmiqyaslı islahatlar aparılıb, Dövlət proqramları, strateji yol xəritələri qəbul edilib. Son 15 ildə bütün dünya miqyasında iqtisadi baxımdan Azərbaycan kimi dinamik inkişaf edən ölkələrin sayı çox az olub. Bəhs olunan dövrdə milli iqtisadiyyatımız 3 dəfədən çox artıb ki, bu da kifayət qədər yaxşı göstəricidir. Hazırda respublikamız Cənubi Qafqaz regionunda ən güclü iqtisadiyyata malik olan dövlətdir. Azərbaycanın qısa müddətdə öz investisiyalarını ixrac edən ölkəyə çevrilməsi son dərəcə qürurverici haldır.

Ötən illər ərzində Azərbaycanda iqtisadi inkişaf dövlət siyasətinin prioriteti kimi müəyyənləşdirilərkən Prezident İlham Əliyevin belə bir fundamental tezisi əsas götürülüb ki, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər. Bu mənada Azərbaycanın vəziyyəti nikbinlik üçün ciddi əsaslar yaradır.



***-Azərbaycanın dinamik inkişafı və beynəlxalq nüfuzunun mütəmadi olaraq artması bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Həmin anti-Azərbaycan dairələri ölkəmizə qarşı qarayaxma kampaniyası aparır, ikili standartlara əsaslanan qərəzli yanaşma nümayiş etdirilər. Bununla bağlı fikirləriniz nədən ibarətdir?***

- Yüksək iqtisadi inkişafa malik, yerləşdiyi regionun lider dövləti olan Azərbaycanda bütün sahələrdə uğurlar əldə edilib. Bunun nəticəsidir ki, bölgənin əsas iqtisadi-siyasi aktoru sayılan Azərbaycan istər daxili sabitliyinə, istərsə də beynəlxalq nüfuzuna görə seçilir. Ölkəmizdə vətəndaşların rifah halının yaxşılaşması, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər görülür. Atılan addımlar və sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr isə onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir.

Eləcə də bu gün demokratik prinsiplərin inkişafına, bu prinsiplərə sədaqətinə görə ölkəmiz postsovet məkanında birinci, dünyanın ən aparıcı dövlətləri arasında isə öncül sırada dayanır. Demokratik təsisatların inkişafına xüsusi diqqət yetirən Azərbaycan hakimiyyəti ölkəmizdə gedən siyasi proseslərdə, o cümlədən insan haqlarının qorunması məsələsində hər zaman şəffaflığı, qanunun tələblərinin qorunması prinsipini əsas tutur.

Cənab Prezident İlham Əliyev Özünün 15 illik prezidentliyi dövründə, ilk növbədə, Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlədib, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin edib, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olub. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan dünyada ilk sıralarda dayanır. Prezident İlham Əliyevin apardığı gələcəyə yönəlik və dərin təhlillərə əsaslanan iqtisadi və xarici siyasəti nəticəsində Azərbaycan iqtisadi potensialını daha da artırır və öz iqtisadi maraqlarının Avrasiya regionunda təmin olunması yolunda əhəmiyyətli nəticələr əldə etməkdədir. Dövlət başçısı tərəfindən aparılan uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan regionda ən etibarlı, sözü və əməli üst-üstə düşən dövlət kimi öz mövqelərini daha da möhkəmləndirib.

Təbii ki, bu uğurların fonunda müəyyən beynəlxalq dairələr, qurumlar, antiazərbaycançı mərkəzlər və erməni lobbisi çox narahatlıq keçirir. Ona görə də, vaxtaşırı olaraq bəzi qurumlar tərəfindən qərəzli qətnamələr qəbul olunur, erməni lobbisinin təsirində olan avropalı siyasətçilər ölkəmizin əleyhinə bəyanatlar verirlər. bütün bunlar məqsədli şəkildə həyata keçirilir ki, ölkəmizin artan beynəlxlaq nüfuzuna zərbə vurulsun, dünya dövlətləri Azərbaycana etimad etməsinlər. amma hər zaman belə planlar fiaskoya uğrayıb. Son vaxtlar yenə də həmin qüvvələr fəallaşmağa başlayıblar. Amma hər zaman olduğu kimi bu dəfə də məqsədlərinə çata bilməyəcəklər.

***-Anti-Azərbaycan dairələrin sifarişlərini yerinə yetirən antimilli ünsürlər, yəni ölkəmizdəki "beşinci kolon" nümayəndələri də Azərbaycanda sabitliyin pozulmasına çalışır, mitinq adı altında təxribatçı hərəkətlərə yol verirlər. Bu fakt özlüyündə nəyi ifadə edir?***

-Azərbaycanda radikal müxalifət düşərgəsində cəmləşənlərin daim milli maraqlara zidd mövqe sərgiləmələri, özlərinin korporativ maraqlarını hər şeydən önə çəkmələri cəmiyyətdə onlara qarşı adekvat münasibət formalaşdırıb. Bu gün ölkəmizdə insanlar radikallara açıq şəkildə "yox" deyərək özünün məqsədyönlü siyasəti ilə Azərbaycanı dinamik inkişaf relsləri üzərinə çıxardan iqtidarla həmrəylik nümayiş etdirirlər. Dağıdıcı ünsürlərin düzənlədiyi hər bir tədbir isə cəmiyyətimizin onlara olan mənfi münasibətini növbəti dəfə açıq şəkildə ortaya qoyur. Radikal müxalifət cəmiyyətə yeni, faydalı, konstruktiv heç nə təklif edə bilmir.

Uzun illərdir ki, düşüncə tərzində, məsələlərə yanaşmasında dəyişiklik edə bilməyən radikal müxalifət düşərgəsinin xarici antimilli mərkəzlərin sifarişləri əsasında "fəaliyyət proqramı" qurması hər kəsə bəllidir. Bu mənada, dağıdıcıların mövsümi olaraq "qabarma-çəkilmə" proseslərinə məruz qaldığı da göz önündədir. Belə ki, illərdir anti-azərbaycançı dairələrin direktivləri əsasında birləşən-ayrılan, küsən-barışan, aksiya keçirən radikal ünsürlərin mövqeyi, məqsədi ortada olub. Ancaq antidemokratik çağırışlarla yadda qalan, Azərbaycanın dövlət maraqlarına düşmən kəsilən, xarici qüvvələrin təsiri ilə ölkədə siyasi sabitliyi pozmağa çalışan və hər addımda yalnız korporativ maraqlarını düşünən radikal ünsürlər əsl müxalifətçilik missiyasından çox uzaqdadırlar. Məlumdur ki, demokratiyanın göstəricilərindən biri olan fərqli düşüncə - müxalifətçilik hər hansı problemin həlli ilə bağlı alternativ yol göstərmək, məsələlərə konseptual müstəvidə yanaşma nümayiş etdirmək, eləcə də fərqli məsələlərlə bağlı konsepsiya irəli sürməkdir. Azərbaycanın radikal müxalifət düşərgəsinə mənsub olanların məqsədləri isə yalnız xarici maraqların təminatına, xəyanətə və satqınlığa yönəlib.

Qeyd olunmalıdır ki, bu insanlar normal, sivil qaydada tədbir keçirmək, ictimaiyyətə öz fikirlərini, ideyalarını çatdırmaq qabiliyyətində deyillər. Çünki hələ də 1990-cı illərin qaragüruhçuluq ab-havası ilə yaşayırlar. Adını "demokrat" qoymuş dağıdıcı ünsürlər keçirdikləri aksiyalar zamanı çıxışlarında da cəmiyyətə yeni, faydalı, konstruktiv heç nə təklif edə bilmirlər. 25 ildən çoxdur dəyişməyən eyni simalar, eyni şüarlar, eyni populist və mənasız çağırışlar, əsassız ittihamlar, yalan vədlər, çıxışçıların qulaqyorucu səs tembrləri yenidən təkrarlanır. Maraqlıdır ki, min bir yalanla gəncləri çaşdırmağa niyyətlənən liderciklər və bunun kimi siyasi alverlə məşğul olanlar 1992-ci ildə xalqın, dövlətin başına hansı oyunları açdıqlarını, ölkənin müstəqilliyini təhdid altına alacaq təhlükələr yaratdıqlarını dilə gətirmirlər.

1992-ci ildə sadalanan xəyanətlərlə yadda qalan, bu gün də dağıdıcılıqdan başqa bir fəaliyyəti olmayan və fərqli xarici maraqların danışan dilinə, əlaltısına çevrilmiş radikal düşərgə təmsilçiləri hər addımda Azərbaycanın milli mənafeyinə zidd mövqe tuturlar. Milli birliyin daha da gücləndirilməsinə, siyasi və iqtisadi sabitliyin qorunub saxlanmasına, dövlətçilik və milli maraqlara xidmət edən siyasi kursun davamlılığına qarşı "cəbhə" açmağa cəhd göstərən, xalqın iradəsinə qarşı düşmən mövqe sərgiləyən radikal kəsimin əsas fəaliyyət xətti isə, qeyd etdiyimiz kimi, məhz ermənipərəst xarici mərkəzlərin sifarişləri əsasında formalaşır.

***-Bu gün sosial şəbəkələrdə bəzi qruplar tərəfindən Azərbaycan xalqına və dövlətinə qarşı təhqiramiz, radikal çağırışların səsləndirilməsi cəmiyyətdə böyük narazılıq doğurur. Bu cür hallara qarşı qanunvericilik səviyyəsində hansı addımlar atılmalıdır?***

-Ölkəmizin əldə etdiyi iqtisadi-siyasi nailiyyətlər, Azərbaycanda güclü xalq hakimiyyət birliyinin formalaşması və bir vəhdət təşkil etməsi, eləcə də Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində əldə olunan hüquqi, hərbi üstünlüklər anti-azərbaycançı, erməniрərəst dairələri həddindən çox narahat edir və onlar məhz radikal ünsürlər vasitəsilə ölkəmizdəki siyasi sabitliyi pozmağa cəhd göstərirlər. Bəzi maraqlı xarici qüvvələrin oyuncağına çevrilmiş, ölkə daxilində özünü "müxalifət" qismində təqdim etməyə cəhd göstərən dağıdıcıların ölkəmizdə bərqərar olan demokratik prinsiplərə kölgə salmaq üçün erməniрərəstlərin "mətbəx"ində hazırlanan yalanları yaymağa çalışması, bu məqsədlə aksiyalar keçirməsi isə onların siyasi kimliyini bir daha üzə çıxarır. Yəni bu kampaniyalar Azərbaycanın klassik küçə-meydan müxalifətinin xaricə sığınan anti-Azərbaycan qüvvələri ilə birlikdə təşkil etdiyi "ortaq tədbirlər"dir.

Bu prosesdə sosial şəbəkələrin imkanlarından geniş istifadə olunur. Sosial şəbəkələrin müsbət cəhətləri çox olsa da, təəssüf ki, ondan heç də xoş olmayan məqsədlər üçün istifadə olunur. Belə ki, ölkəmiz haqqında yalan məlumatlar yayılır. İnsanların şərəf və ləyaqəti təhqir olunur və s. Bunlar yolverilməzdir. Azərbaycan cəmiyyəti haqlı olaraq belə hallara qarşı kəskin etirazını bildirir.

# Sərsəng su anbarı Ermənistan tərəfindən ekoloji terror obyektinə çevrilib

*Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yeni su kanalı çəkilməsi cəhdləri beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qiymətləndirilir*

***Ötən əsrin son onilliyində baş verən ictimai-siyasi proseslər nəticəsində xalqın milli varlığını, onun tarixini əks etdirən abidələr Ermənistan təcavüzkarları tərəfindən dağıdılıb. Ermənistan tərəfindən Azərbaycana qarşı əsassız ərazi iddiasının irəli sürülməsi və zəbt etdikləri ərazilərdə maddi abidələrə qarşı talançılıq siyasətininin yeridilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması deməkdir.***



Ermənistan və işğal olunmuş ərazilərdə yaradılmış qondarma rejim ötən illər ərzində Ağdərinin sərvətlərinin talan edilməsi üçün qeyri-qanuni əməllər həyata keçirir. Hərbi təcavüz nəticəsində, işğal olunmuş ərazilərdə ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları Ermənistan ərazisində qalaraq, hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilir. İşğal zonalarında işğalçılar geniş miqyaslı, qeyri-peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar. İşğal altında olan ərazilərdəki əlverişli təbii şərait, onun sıx meşələri erməni təcavüzkarları tərəfindən talan edilir və Dağlıq Qarabağın ətrafındakı Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam rayonlarının əraziləri əkilib-becərilmir və ona görə də, böyük ekoloji fəlakət yaşanılır. Təbiətə qarşı olan ermənilərin amansızsızlıq aksiyası onların Azərbaycan ərazilərinə qarşı qısqanclığını, iddialı mövqedən çıxış edib, özünəməxsus formanı tətbiq etməsi ilə yanaşı, bir məntiqin də gerçəkliyini təsdiqləyir. Bu, ermənilərin Qarabağ ərazisində müvəqqəti olduğunu təsdiqləyən faktordur.

### ERMƏNİSTANIN EKSPANSİONİST PLANI AZƏRBAYCANIN İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRİNDƏ TƏBİİ EHTİYATLARININ TALAN EDİLMƏSİNƏ YÖNƏLİB

Ağdərənin də təbii resursları Ermənistan tərəfindən vəhşicəsinə istismar olunmaqla bərabər, həmçinin, Sərsəng su anbarı da ekoloji terror məqsədləri ilə istifadə edilir. Ermənistan tərəfindən Sərsəng su anbarının qeyri-humanist bir şəkildə istifadə edilməsinə cəhd göstərilməsi, beynəlxalq konvensiyaların, o cümlədən də, sosial-iqtisadi və siyasi hüquqlar haqqında beynəlxalq haqqın, Cenevrə konvensiyalarının kobud şəkildə pozulmasıdır.

Tərtər çayı üzərindəki Sərsəng su anbarı hazırda Tərtər rayonunun erməni işğalında olan ərazisində qalmış və Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olmuşdur. 1976-cı ildə inşa edilən Sərsəng su anbarı respublikada bəndinin hündürlüyünə görə ən yüksəyidir və respublikanın 6 rayonunun (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. Yalnız Sərsəng su anbarının işğalı nəticəsində, 100 min hektar sahədə kənd təsərrüfatı bitkilərinə suvarma suyunun verilməməsi respublikanın bu regionuna əvəzolunmaz zərər vurmuşdur. İşğal altında qalan Sərsəng su anbarının texniki təhlükəsizliyinin təmin olunması üçün zəruri diqqət ayırmır və bu da nəticə etibarilə, Tərtər çayı boyunca yerləşən çoxsaylı Azərbaycan yaşayış məntəqələri üçün təhlükə yaradır. Sərsəng su anbarı, onun üzərində olan su-elektrik stansiyası Ermənistan tərəfindən ekoloji və humanitar terror obyektinə çevrilib.

Son vaxtlar dünya mətuatında, efirində, beynəlxalq hesabatlarda Azərbaycanla bağlı ürəkaçan yazıların, verilişlərin, statistik göstəricilərin təqdim olunduğu zamanda, Azərbaycanın işğal olunmuş ərazisində yerləşən Sərsəng su anbarına da münasibətlər ifadə olunur. Vaxtı ilə böyük bir ərazini suvarma suyu ilə təmin edən anbar önəmli içməli su qaynağıdır. Avropa Şurası tərəfindən müvafiq istiqamətdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulsa da, terrorist ermənilər ateşkəsi pozmaqla yanaşı, Sərsəng su anbarından da öz çirkin əməllərini həyata keçirmək üçün istifadə edirlər. Belə önəmli bir içməli su qaynağının münaqişə səbəbindən təhlükə altında olması təəssüf doğurur. Ermənilərin ekoloji terroru Azərbaycanın flora və faunasına zərər yetirir, təbii sərvətlərini məhv edir. Bu ermənilərin bilərəkdən Azərbaycana vurduqları ziyandır.

### ISESCO TƏRƏFİNDƏN ERMƏNİSTANIN İŞĞAL ETDİYİ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ SƏRSƏNG SU ANBARINDAN KANAL ÇƏKİLİŞİ İLƏ BAĞLI HƏRƏKƏTLƏRİ PİSLƏNİLİR

Bu gün Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində Sərsəng su anbarından kanal çəkmək cəhdi ilə bağlı hərəkətləri pislənilir.

Bu günlərdə Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə İslam Təşkilatı (ISESCO) bəyanatla çıxış edib. Sənəddə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində Sərsəng su anbarından kanal çəkilişi ilə bağlı hərəkətləri pislənilir. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yeni su kanalı çəkilməsi cəhdləri ni beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qiymətləndirir. İSESKO-nun da erməni aqressiyası və Azərbaycanın 20% ərazilərin işğalı ilə bağlı mövqeyi ondan ibarətdir ki, bu işğal qanunsuzdur və təşkilat buna qarşı çıxır. Çünki bu, beynəlxalq qanunların pozulmasıdır, ikincisi də bu ərazilər Azərbaycanın əzəli torpaqlarıdır. ISESCO-nun baş direktoru Əbdüləziz əl-Tuveycri bildirib ki, Ermənistanın bu ekspansionist planı Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyəti dəyişməyə və ISESCO-nun üzvü olan Azərbaycan Respublikasının təbii ehtiyatlarının talan edilməsinə yönəlib. Baş direktor bunu xüsusi mülkiyyət və dövlət mülkiyyəti hüquqlarının, habelə, beynəlxalq hüququn, o cümlədən, Dördüncü Cenevrə Konvensiyasında təsbit olunmuş "işğalçı dövlət işğal edilmiş ərazilərdə mülki şəxslərin müdafiəsini təmin edir" müddəasının pozulmasını hesab edir.

ISESCO-nun baş direktoru beynəlxalq birliyə və beynəlxalq hüquq-müdafiə təşkilatlarına müraciətlə Ermənistanı öz iqtisadiyyatını Azərbaycanın təbii ehtiyatlarından istifadə edilməsi hesabına inkişaf etdirməyə yönəlmiş ekspansionist planından və etnik təmizləmə siyasətindən əl çəkməyə, dünyanın bu mühüm regionunda sülhün və təhlükəsizliyin bərqərar olması məqsədilə Ermənistanı Azərbaycanın işğal olunmuş ərazilərini dərhal azad etməyə məcbur etməyə çağırıb.

Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı beynəlxalq qanunları pozur. Xatırladaq ki, bu torpaqların işğalı ilə bağlı BMT Baş Assambleyasının 4 qətnaməsi var, lakin onlar icra olunmayıb. Şübhəsiz ki, beynəlxalq ictimaiyyət Ermənistanı bu ərazilərdən geri çəkilməyə məcbur etməlidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Rəsmi Statistika: Borc içində batan Ermənistan!



Ermənistanın Statistika Komitəsi 2018-ci il üçün Ermənistanın sosial-iqtisadi göstəricilərini açıqlayıb. SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, 31 dekabr 2018-ci il vəziyyətinə dair rəsmi statistikaya əsasən bu ölkənin borcu 6 milyard 922 milyon 895 min dollara çatıb. Bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 148 milyon 293 min dollar artıqdır. Eyni zamanda, 2017-ci ilin sonu ilə müqayisədə, 2018-ci ilin sonunda Ermənistanın dövlət borcu təxminən 38 milyon dollar artaraq 5 milyard 532 milyon 881 min dollara çatıb.

Komitə tərəfindən açıqlanan məlumatda bildirilir ki, keçən ilin 31 oktyabr tarixindən etibarən milli borc azalaraq 6 milyard 724 milyon 91 min ABŞ dollarına çatıb. Bir ay sonra, artıq 6 milyard 765 milyon dollar, dekabr ayında isə 6 milyard 774 milyon 602 min dollar olub. 2018-ci ilin sentyabr-dekabr aylarında ümumilikdə Ermənistanın dövlət borcu 199 milyon dollar artıb.

***Nailə Məhərrəmova***

# Övladlığagötürmə sahəsində beynəlxalq təcrübə və yerli reallıqlar əsasında yeni idarəetmə modeli hazırlanır



Prezident İlham Əliyevin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğun olaraq, övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müvafiq plan əsasında işlər davam etdirilir. azirliyin icti maiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yaradılmış işçi qrup tərəfindən bir sıra yerli və xarici mütəxəssislərlə, QHT-lər, həmçinin UNICEF və digər bir sıra beynəlxalq təşkilatlarla intensiv məsləhətləşmələr aparılır.

Bundan başqa beynəlxalq konsaltinq şirkəti olan "McKinsey&Company", valideyn himayəsindən məhrum olmuş uşaqların maraqlarına xidmət etməklə övladlığagötürülmə mövzusunda beynəlxalq təcrübənin araşdırılmasında və tətbiq edilməsində könüllü şəkildə dəstək göstərir. Əməkdaşlıq çərçivəsində övladlığagötürmə sahəsində prosesin təkmilləşdirilməsi və bu prosesdə şəffaflıq və çevikliyin təmin edilməsi, stimullaşdırıcı mexanizmlərə dair təkliflərin hazırlanması və s. ilə əlaqədar beynəlxalq təcrübə öyrənilir. azırda övladlığagötürmə sahəsində qabaqcıl beynəlxalq təcrübə və yerli reallıqlar əsasında yeni idarəetmə modeli hazırlanır.

# "The Economic Times": Hindistan yükləri Azərbaycandan keçməklə Avropaya daşınacaq



Hindistan yükləri Azərbaycandan keçməklə Avropaya daşınacaq.AZƏRTAC xəbər verir ki, "Rusiya Dəmir Yolları" ASC ilə Hindistanın Konteyner Korporasiyası arasında anlaşma memorandumu imzalanıb. Memoranduma əsasən, tərəflər Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tamamilə formalaşmasına dəstək verəcək. Sənədə görə, korporasiya Hindistanın və bu ölkə üzərindən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə ixrac əməliyyatı həyata keçirən ölkələrin yüklərini daşıyacaq. Beynəlxalq yükdaşıma sahəsində ixtisaslaşan korporasiya yükləri Mumbaidən İranın Fars körfəzi sahilindəki Bəndər-Abbas limanına, buradan isə dəmir yolu ilə Azərbaycan ərazisindən keçməklə Rusiya və Avropaya daşıyacaq. Burada söhbət Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolundan gedir.

"The Economic Times" qəzeti yazır ki, İran ilə Rusiyanın dəmir yolları Azərbaycan vasitəsilə artıq birləşib. İran Astarası ilə Azərbaycanın Astarası arasında dəmir yolu körpüsü tikilib istifadəyə verilib. Bu yolun Rəşt-Astara hissəsinin tikinti işləri həyata keçirilir və gələn il istifadəyə verilməsi gözlənilir. İqtisadi sanksiyalara baxmayaraq, İran bu yolun tikintisini davam etdirir. Azərbaycan tərəfi də yolun inşasına 500 milyon dollar investisiya yatırıb.

Azərbaycan elə bir əlverişli coğrafi mövqeyə malikdir ki, buradan Gürcüstan vasitəsilə də Avropaya yükdaşımalar həyata keçirmək olar. Bunun üçün Bakı-Tbilisi-Qars dəmir yolu fəaliyyət göstərir. Qərbi Avropaya daşınan yüklər Azərbaycan-Rusiya-Avropa marşrutu, Şərqi Avropa ölkələrinə isə Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə daşına bilər. Göründüyü kimi Azərbaycan hər iki halda logistik mərkəz kimi çıxış edir və tranzit məkana çevrilir.

# Arif Əliyevin yersiz “göz yaşları” və KİVDF-nin ideya müəllifləri...

***Ç**ap mətbuatımızın yeni mərhələsini açmaq və onunla internet media resurslarının sərhədlərini daha dəqiq şəkildə bir-birindən ayırmaq, nəticədə elə internet media resurslarının özlərinin də inkişafı üçün təzə mərhələ açmaq məqsədilə müəyyən yeniliklər edən KİVDF-nin son addımlarını da ləkələmək fürsətini əldən qaçırmaq istəməyənlər yenidən ayaqlanıblar.*

Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu on ilə yaxın bir müddətdə qəzetlərin maliyyələşdirilməsi meyarlarında növbəti dəfə dəyişiklik edib. 2010-cu ildən indiyədək Fond maliyyələşdirmə üçün əsas meyarlar olan çap tirajı və yayım sayını dörd dəfə yeniləşdirib. Nəticədə, məsələn, meyar olaraq çap tirajı 5 min, yayım nüsxələri 2 minin üstündə sonuncu dəfə qərarlaşıb. KİVDF bu yeni meyarları göydəndüşmə elan etmədi. Hələ ötən ilin yayında qəzetlərlə müqavilə imzalayanda icraçı direktor Vüqar Səfərli hamıya açıq demişdi ki, 2019-cu ildə maliyyələşmənin bir qədər sərtləşdirilmiş meyarları tətbiq olunacaq və hər bir qəzet yeni meyarlarla ayaqlaşmaq üçün işini indidən bilməlidir. Yeni meyarlara keçmək üçün KİVDF rəhbərliyi 2018-ci il dekabrın sonlarında 6 yox, 3 aylıq maliyyələşdirmə dövrü üçün müsabiqə şərtlərini elan etdi, bu il yanvarın əvvəllərində qəzetlərlə 3 aylıq dövr üçün müqavilə imzaladı, bir neçə həftədən sonra isə növbəti 3 aylıq dövr - aprel-iyun ayları üçün yeni meyarlar əsasında müsabiqənin şərtlərini elan etdi, qəzetlərlə az əvvəl imzalanmış 3 aylıq müqavilə öhdəliklərini pozmadan, sadəcə növbəti 3 ay üçün yeni meyarları iki ay qabaqcadan elan etməklə qəzetlərə özlərini toparlamaq üçün son dəfə iki aylıq hazırlıq fürsəti verdi. İndi əlində müqaviləsi olan 30-dan çox qəzet həm köhnə, lakin qüvvədə olan şərtlərlə çapını davam etdirir, həm də təzə meyarlar əsasında ikinci 3 aylıqda da çapını davam etdirmək üçün özündə güc hiss edən qəzetlər fəal hazırlıqlar içindədir. Məsələ bu qədər sadə olduğu halda bəzilərinin görünməyən qərəz və qisasçılıq motivləri ilə məsələni dolaşdırmaq cəhdləri, təəssüf ki, hələ də davam edir.

Məsələn, ən son dəfə qərəzi bu gün də üzdə olan jurnalistlərin sabiq həmkarı Arif Əliyev püskürüb - Turan Agentliyinə.

Müsahibəni götürən müxbirin qərəzi Arif Əliyevdən qabaq özünü göstərir. Bəlkə sual da, cavablar da eyni adam tərəfindən hazırlandığı üçün belə oxşarlıq var. Bəlkə Arif Əliyev müsahibədən qabaq müxbiri qərəz tonu üstündə “silahlandırıb”, bilmirik, keçirik əsas məsələyə...

Yazının ilk cümləsini oxumaq kifayətdir ki, qalan hissələrin başdan-başa müxbir-müsahib duetinin “qərəzli yaradıcılıq məhsulu”ndan başqa bir şey olmadığını görəsən. Müxbirin ilk cümləsi - “KİVDF 20-yə yaxın qəzetin maliyyələşməsini ləğv etdi. Bundan sonra cəmi 10 qəzet KİVDF tərəfindən maliyyələşəcək.” Ən sadə və mədəni formada “yalançıya ayıb olsun” deyib, müxbirin günahının üstündən keçərdik. Ancaq bağışlanmaz haldır ki, hamıya “ağıl vermək” istəyən həmkarımız Arif Əliyev müxbirin ağ yalanı arxasınca başını aşağı salıb quzu kimi gedir, müxbirdən soruşmur ki, ay bacı, ay qardaş, maliyyəsi ləğv olunan o 20 qəzet hansıdır, bircəsinin adını göstər. Arif müəllim bunu etmir, edə də bilməz, çünki müxbirlə birlikdə “bıçağı itiləyib” ona görə meydana düşməyib ki, həqiqəti desin, KİVDF-nin çap mediasının inkişafı üçün gördüyü işlərə obyektiv qiymət versin, desin ki, KİVDF olmasaydı ötən on ildə hətta bundan sonra fəaliyyətini davam etdirmək gücündə olduğu deyilən bir neçə qəzet də ortadan çıxıb yox olardı, elə vaxtilə Arif müəllimin özünün rəhbərlik etdiyi, ancaq maliyyəsini beynəlxalq təşkilatlardan aldığı “Gün” qəzetinin maliyyə kəsilən anda yox olub getməsi kimi... Beləliklə, Azərbaycan çap mediasının 99 faiz sıradan çıxdığı ilk dünya dövlətinə çevrilərdi və sair. Azacıq ədalətli və obyektiv olmağı bacarsa, Arif Əliyev üçün bunun ardınca deyə biləcəyi şeylər çoxdu. Əvəzində isə qərəzli tonunu bir az da artırır...



Aydın QULİYEV

Kim, nə vaxt, harada, hansı rəsmi tribunada “bundan sonra Azərbaycanda cəmi 10 qəzet KİVDF-dən maliyyələşəcək” deyə bəyanat veribsə, Arif Əliyev onu bizə də desin. Heç bir məsuliyyət hiss etmədən “müxbir dedi, mən də təsdiqlədim” prinsipi ilə mahiyyəti tam fərqli olan işlərə qara yaxmaq dürüstlük və mətbuat siyasətinin “ən bilicisi” roluna iddialı şəxsə qətiyyən yaraşmaz.

Arif Əliyevin “camaatın vergi kimi ödədiyi vəsait qəzetlərin yolunda göyə sovruldu” sözlərinə yekə-yekə danışmağın bir nümunəsi kimi baxmaq ən doğrusu olardı. Arif Əliyev son 10 ildə dövlət büdcəsinə hansı gəlirdən və nə qədər vergi ödədiyini açıqlasaydı, onun başqaları tərəfindən ödənmiş vergilərə vəkillik etməsini başa düşərdik. Arif Əliyevin “işini itirən jurnalistlərə” acıması da artıq yersiz canıyananlıq kimi görünür. Ortada qurban yoxdusa, qanı tökülən, işini itirən jurnalist yoxdusa, KİVDF-nin bağlatdığı deyilən bir qəzet yoxdusa, Arif Əliyevin səbəbsiz “göz yaşlarına” biz acıyırıq. Hələ dekabrda, həm də KİVDF-nin maliyyəni davam etdirdiyini açıq dediyi, tam başqa səbəblərdən özünü dayandıran iki qəzetdən başqa hansı qəzetin əməkdaşları işsiz qalıb? Əslində heç onlar da işsiz deyil...

Arif Əliyev, guya daha tutarlı arqument axtaranlar kimi, Prezidentin 2008-ci ildə imzaladığı KİV-in İnkişafına Dövlət Dəstəyi Konsepsiyasını da “ələk-vələk etməyə” vaxt tapır. KİVDF-nin qəzetlərə təkcə maliyyə yardımı etdiyini, Konsepsiyada göstərilmiş başqa işləri görmədiyini öz aləmində irad tutur. Yox, Arif müəllimin burda qərəzdən allahsızlığa üz tutan ədalətsizliyinə emosiyasız baxmaq olmur. Artıq dedik ki, KİVDF yaranmasaydı, ötən on ildə qəzetlərin 99 faizinin qapı-bacası bağlanacaqdı. Gözü qərəzdən örtülmüşlərin bunu görməzdən gəlməsi ilə deyil ki... Azərbaycanda hamı bunu deyir, baş redaktorlar, jurnalistlər KİVDF-ni yaratdığı üçün Prezidentə təşəkkür edirlər. Etməyənlər bilirsiz kimlərdi? O adamlardı ki... Azərbaycan mediası KİVDF-nin əli ilə öz dövlətimizdən qanuni və şəffaf maliyyə almağa başlayan anda xaricdən bulanıq maliyyələr alan qəzet rəhbərlərinin “bazarı” daralmağa başladı, sonra isə tam bağlandı. Xaricdə kimə bağlı olduğu bilinməyən fondların maliyyəsi hesabına qəzet buraxmaq yaxşıdı, Azərbaycan dövlətindən maliyyələşmək niyə pis sayılmalıdı?! Pul alıb öz dövlətinə və onun Prezidentinin siyasətinə dəstək vermək vətənpərvərlik və şərəf işidir, xaricdən maliyyə alıb yarı yolda qalmaq isə, yumşaq desək, heç də şərəfli iş deyil...

Azərbaycan mediası heç vaxt son on ildəki qədər güclü olmayıb, çünki şəffaf qaydada aldığı maliyyə ilə dövlətinin yanında olub və var. Öz dövlətinin yanında olmayan, əcnəbilərin dəstəyinin ümidinə qalan media heç vaxt güclü ola bilməz. Heç uzun yol da gedə bilməz. Bir vaxtlar qəzet çıxarmış Arif Əliyev və başqa bəzi “dostlar” bunu yaxşı bilər... İflasa uğrayan KİVDF-nin media siyasəti yox, gözünü əcnəbilərin pul kisəsinə dikərək sonda həm Azərbaycan dövlətinin, həm də əcnəbilərin maliyyəsindən əli çıxan iddialı sabiq qəzetçilərdi...

Aprelin 1-dən, həqiqətdir ki, indiki meyarlara uyğunlaşa bilməyən bir sıra qəzetlər özlərinin çap versiyasını dayandıra bilər. Ancaq kimsə onlara əmr verməyib ki, aprelin 1-dən çap olunmayın. KİVDF rəhbərliyi yeni meyarlara uyğunlaşa bilməmək səbəbindən çapını dayandıran qəzetlərin onlayn versiyasını hələlik dəqiqləşməyən meyarlarla maliyyələşdirəcəyini bildirib. Yəqin ki, yaxın 2 ayda həmin meyarlar konkret məlum olacaq. İndidən “qəzetlər bağlanacaq, jurnalistlər ordusu işsiz qalacaq” kimi əsassız şüvənlər qoparmaq ciddi adamların işi deyil. Rəsmən bəyan olunub ki, qəzetlərin elektron versiyası maliyyələşəcək, jurnalistlər işsiz qalmayacaq, Arif Əliyevin nədənsə düşmən kimi baxdığı həmin jurnalistlər KİVDF-nin əli ilə dövlətdən pulsuz-minnətsiz hazır mənzilləri də almağa davam edəcəklər.

Yeri gəlmişkən, Arif Əliyevin tökdüyü qara-qura nə qədər qatı olsa da, KİVDF-nin 400-dən çox jurnalistin Prezidentdən hədiyyə olaraq mənzil almasının savabını batıra bilməz. KİVDF-nin gərəksiz olduğunu iddia edənlər özünü tam doğruldan bu təşkilata yox, ev-eşik sahibi olan jurnalistlərə düşmənçilik edir. Arif Əliyev öz dediklərinə bu qədər əmindirsə, bircə dəfə 400-dən çox jurnalistin mənzil aldığı həmin iki binanın həyətinə təşrif buyursun və uca səslə desin:”Bu binalarda evi olan jurnalistlər satqınlar, əsl vətənpərvər və peşəkar isə mənəm!”

Arif Əliyevin müsahibəsində bir az da “maniya” əlamətləri görünür. Mətbuat Şurasının, KİVDF-nin onun özünün, Elçin Şıxlı və Mehman Əliyevin ideyası ilə yarandığını iddia edir. Mətbuat Şurası ilə bağlı Arif Əliyevin hansı motivlərlə təftişçilik etdiyini “ucundan-qulağından” mən də eşitmişəm, “bir müddət sən sədr ol, sonra mən olum” kimi ortada yarımçıq qalmış bir təmənnadan umu-küsünün olduğunu da bilirəm. Ancaq daha konkret təfsilatlardan dostum Əflatun Amaşov, lazım bilsə, danışa bilər. Elçin Şıxlının və Mehman Əliyevin Mətbuat Şurasının və KİVDF-nin ideya müəllifləri olduqları barədə fikrə gəldikdə isə, ideyanın kimlərə məxsus olması önəmli deyil. Önəmli olan odur ki, ideya özünü tam doğruldur. Əgər kimlərsə bir zamanlar müəllifi olduqları ideyanın gerçəkləşməsindən fayda götürə bilmədiklərinə görə yanıb-tökülürlərsə, günahı özlərində axtarsınlar. Yetər ki, faydalı bir işin qulpundan yapışasan, qərəzli olmayasan, reallığı tərsinə görməyəsən, bu gün əli stabil çörəyə çatmış jurnalistlərin süfrəsinə düşmənçilik etməyəsən...

Sonda, KİVDF-nin ideya müəlliflərinin kim olmasından asılı olmayaraq, on(lar)a böyük hərflərlə TƏŞƏKKÜR halal olsun.

## BQXK: 1992-ci ildən bəri 700-dək insan Azərbaycan və Ermənistan tərəflərinə qaytarılıb



1992-ci ildən bəri 700-dək insan Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) vasitəçiliyi ilə Azərbaycan və Ermənistan tərəflərinə qaytarılıb. AZƏRTAC xəbər verir ki, bu fikir BQXK-nın fəaliyyətinə həsr olunan tədbirdə səsləndirilib. Qeyd edilib ki, girovluqdan azad edilənlər arasında hərbçilərlə yanaşı, mülki şəxslər də olub.

## Qarabağ münaqişəsi zamanı itkin düşənlərin 80 faizi hərbçilərdir





Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı müxtəlif millətlərin nümayəndələri olan 4500-dək insan itkin düşüb. Bunu Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndəsi Daniel Messerli deyib. O bildirib ki, həmin şəxslərdən 3800 nəfəri BQXK-nın Bakı nümayəndəliyi tərəfindən qeydə alınıb. İtkin düşən şəxslərin 80 faizi hərbçilərdir.

## Vladimir Fesenko: Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsbət mövqe nümayiş etdirmir



Ermənistan hakimiyyəti Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hər hansı müsbət mövqe nümayiş etdirmir. Bu fikri AZƏRTAC-a açıqlamasında “Penta” Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri, ukraynalı politoloq Vladimir Fesenko söyləyib. Onun sözlərinə görə, Ermənistanın yeni hakimiyyəti, baş nazir N.Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müsbət bəyanat verməyib.

“Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı güzəştə gedəcəyini görmürəm. O Ermənistanın siyasi kursunun dəyişməyəcəyini də bəyan edib. Ola bilsin ki, perspektivdə Paşinyanın mövqeyində dəyişiklik olsun. Əgər o Ermənistanın daxili siyasətində uğur qazana bilsə, ola bilər, münaqişənin həllində də hansısa mövqe ortaya qoysun”, - deyə Fesenko əlavə edib. Politoloq bildirib ki, regionda sülhün əldə olunması üçün Dağlıq Qarabağ münaqişəsinin həlli önəmlidir.

# Arif Əliyev yenə də sərsəmlədi

*"Bu günə qədər Arif Əliyev hansı iş arxasına keçibsə, qısa müddətdən sonra onu iflasa uğradıb"*

***Son vaxtlar sosial şəbəkələrdə mətbuat-dövlət münasibətlərinə zərər verməyə hesablanan qarayaxma kampaniyası aparılır. Özünü jurnalist adlandıran Arif Əliyev adlı şəxs KİVDF-nin açıqladığı məlum şərtlərinə münasibət bildirərkən şər və böhtanlarını, ittihamlarını yenidən təkrarlayıb. Söhbət etdiyimiz müsahiblərimiz A.Əliyev kimilərin ittihamlarının özlərinin beyin məhsulu olmadığını, onları müəyyən qüvvələrin təlimatlandırdığını bildirdilər.***

## <u>"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli:</u> "Arif Əliyev bir çox hallarda öz fikrini ifadə etmir"



- Arif Əliyevin belə açıqlamaları artıq adi hal alıb. Yaxın zaman da göstərir ki, onun bu açıqlamalarının arxasında, adətən, kənar maraqlar dayanır. A.Əliyev bir çox hallarda öz fikrini ifadə etmir. Bununla bağlı Mətbuat Şurasının iki qurultay öncəsini xatırlayıram. Onun çıxışında beynəlxalq təşkilatlardan gətirdiyi nümunələr və beynəlxalq təşkilatın ona ünvanladığı məktubu az qala Azərbaycan jurnalistlərinin "Yol xəritəsi" kimi təqdim etməsi hər kəsin xatirindədir. Bu tendensiyadan çıxış edərək, A.Əliyevin hansı maraqlar əsasında fikir yürütdüyünü müəyyənləşdirmək mümkündür. O ki qaldı KİVDF-nin açıqladığı son şərtlərə, bu şərtlər yeni deyil. Bunun ətrafında ajiotaj yaradan insanlarda, bu şərtlərin yeni olmadığını hər kəsdən yaxşı bilirlər. KİVDF havadan düşməyib, bunun üçün uzun müddət müzakirələr aparılıb və bu müzakirələrdə ölkənin media camiəsinin bütün nümayəndələri iştirak ediblər. Mətbuat Şurası bu prosesdə fəal rol oynayıb və bütövlükdə, sonralar Cənab Prezident tərəfindən Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası qəbul edilib. Bu konsepsiyada bir çox məqamlar yer alıb və həmin o konsepsiyanı da vaxtı ilə təqdir edən şəxslərdən biri də A.Əliyev idi. Sonrakı proseslərdə A.Əliyev özünü Azərbaycan mediasında büruzə verə bilmədiyindən və tükəndiyini hiss etdiyindən, təbii ki, proseslərdən kənarda qaldı, bu proseslərdə də aktiv şəkildə ölkənin daha fəal, daha peşəkar media qurumları fəaliyyət göstərməyə başladılar. KİVDF 10 il ərzində, şərtləri bir necə dəfə dəyişib. Çünki fond yaranında, əsas məqsəd ondan ibarət idi ki, mətbuatın maddi-texniki bazası möhkəmləndirilsin. Maddi-texniki bazanın möhkəmləndirilməsindən sonra qəzetlərin tirajları artırılsın və eyni zamanda, paralel olaraq, müsabiqələr keçirməklə, treninqlər təşkil etməklə jurnalistlərin peşəkarlığı yüksəldilsin. Məhz bundan sonra qəzetlərin qarşısında daha böyük tələblər qoyulsun ki, onlar bu gün dünyada mövcud olan çap mediasının formatına uyğun bir şəkildə ortalığa istehsal qoya bilsinlər. Bu aspekdən də, sonuncu şərtlərlə bağlı da hələ xeyli müddət öncə, ötən ilin birinci yarımilindəki layihə maliyyələşməsi zamanı bütün iştirakçılara məlumat verilmişdir. Dekabrda da, xəbərdarlıq edilib ki, artıq şərtlər dəyişiləcək. Çünki tələblər artır və Azərbaycan oxucusuna daha keyfiyyətli bir mətbuat - çap mediası təqdim etmək lazımdır. Məhz bu inkişaf dinamikasına uyğun olaraq, KİVDF son şərtlərini açıqladı və bu şərtlər də heç bir halda hansısa bir mətbuat orqanının qapadılması və yaxud kiminsə sıradan çıxarılması anlamına gəlməməlidir. Şüuru olan bütün insanlar da bunu, məhz bu aspekdən qəbul edirlər. İndi əgər Arif Əliyevin bunu fərqli bir istiqamətə yönəltməyə çalışması və düşünürsə ki, dünyada baş verən tendensiya Azərbaycandan yan keçməlidir, o aspekdən də mənim qənaətimə görə, kökündən yanılır. Əgər A.Əliyev yaxşı bir baş redaktordursa, bir layihəsini, heç olmasa, bir il davam etdirərdi. Yəni bu günə qədər A.Əliyev hansı iş arxasına keçibsə, qısa müddətdən sonra onu iflasa uğradıb. Elə "Gün Səhər" qəzetinin taleyi hər kəsin xatirindədir ki, qısa müddətli ömür yolu yaşadı və qalmaqalla da taleyi bitdi. Bu baxımdan da, özünü təsdiq edə bilməyən, peşəkar mediada insanlar, adətən, boş-boş danışmağa üstünlük verirlər. Bu da A.Əliyevin, görünür, özü üçün seçdiyi bir istiqamətdir, yoldur.

## <u>Azərbaycan Mətbuat Şurasının sədr müavini, BAMF sədri Umud Rəhimoğlu:</u> "Arif Əliyevin mövqeyi olduqca yanlış mövqeydir "



- KİVDF dövlətin mətbuatla bağlı siyasətini həyata keçirən əsas qurumlardan biridir. Yarandığı vaxtdan indiyədək bu qurumun vasitəsilə çap mediasına xeyli yardım göstərilib, qəzetlərin əksəriyyəti bu dövlət yardımından birbaşa faydalanıb. Üstəlik, bu maliyyənin ayrılması üçün qəzetlərdə icra olunan layihələr cəmiyyətimizin və ölkəmizin maraqları baxımından faydalı mövzular olub. Belə bir qurumun barəsində, əlbəttə, müxtəlif rəylər söylənilməsi təbiidir. Mən 8 il fondun Müşahidə Şurasının sədri olmuşam. Bu qurum özfəaliyyətlə məşğul olmur, dövlət tərəfindən müəyyənləşdirilmiş siyasətin həyata keçirilməsi üçün üzərinə qoyulmuş tapşırıqları icra edir. Mətbuat orqanlarına maliyyə yardımı ayırmaqdan tutmuş, jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına qədər dövlət başçısının bu sahədə qarşıya qoyduğu bütün planlar addım-addım həyata keçirilir. Arif Əliyevin mövqeyi ilə tanışam və hesab edirəm ki, olduqca yanlış mövqedir. KİVDF bu illər ərzində, xeyli işlər görüb. Görülən işləri danmaq olmaz. Bu qurum yaranan vaxt prioritet çap mediası idi. Zaman keçir, hər şey sürətlə dəyişir. İndi onlayn media daha geniş yayılır və daha effektivdir. Odur ki, şərtlər də dəyişib, qəzetlərə yanaşma başqa meyarlarla olmalıdır. Qəzetlər, məhz onlayn medianın qarşısında dayana bilmək üçün fəaliyyətlərini yeni dövrün tələblərinə uyğun, daha effektiv qurmalıdırlar. Bəli, bizim hər birimiz tənqid oluna bilərik. O meyarla yanaşsaq, dünyada heç bir iş ideal səviyyədə deyil, bunu iddia etmək də doğru olmazdı. Lakin tənqid obyektiv olmalıdır. Heç kim öz bildiyini həqiqət kimi diktə etməməlidir. Hərənin öz yanaşması və baxışı ola bilər.

Xüsusilə də, bizim kimi çoxillik təcrübəsi olan insanlar gərək bu məsələlərdə diqqətli davranaq. O ki qaldı bu cür kampaniyaların kənar təsirlərlə əlaqəsinə, qeyri-obyektiv olmaq, məsələyə diktat tərziylə yanaşmaq, o cür təsirlərdən daha təhlükəlidir. Mətbuat kimi tarixi ənənələri olan və ciddi bir institutun problemləri sehrli çubuqla həll oluna bilməz, bunun üçün zaman lazımdır. İttiham olmaq üçün bəhanə axtaranlar bunu da nəzərə alsınlar ki, ölkəmizi gözü götürməyən xarici dairələr belə əsassız çıxışlardan sui-istifadə edir. Hər bir halda, Azərbaycan demokratik - hüquqi dövlət quruculuğu yolunda addımlayır və inanıram ki, hər bir sahədə olduğu kimi, mətbuat sahəsində də ölkə hakimiyyətinin, Prezident İlham Əliyevin atdığı proqressiv addımlar ən yaxın zamanda bu cür əsassız ittihamları boşa çıxaracaq.

***GÜLYANƏ***

# Müxalifətin "xəyal məhsulu" fiaskoya doğru

*Eynulla Fətullayev Əli Kərimlini müxalifət düşərgəsinin tülküsü adlandırıb*

***"Milli Şura" deyilən qondarma qurumun yanvarın 19-da Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul") uzun illərdən bəri iki minlik baryeri aşa bilmədiklərindən utanmayaraq sosial şəbəkələrdə yenidən mitinq keçirmək iddialarına düşmək, Eynulla Fətullayevin dediyi kimi, AXCP sədri Əli Kərimli tülkülüyünün nümunəsidir: "Onda xas olan bu özünəvurğunluq və həyasızlıqla Kərimov bir andaca Kərimliyə çevrildi. Sonra meydanlardan Elçibəy hakimiyyəti ilə yüksək posta sahib oldu... Bütün tülkü və xəyanətkar siyasəti ilə".***



Bu gün bu tülkü siyasətçi və cinayətkar Ə.Kərimli ilə bağlı Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən məhkəmədə şahidlərin verdikləri ifadələrə əsasən, AXCP sədrinin xarici qüvvələrin göndərdiyi maliyyə ilə ölkədə təxribatlar törətmək istəyi faktları sübuta yetirildiyi bir halda, utanmadan mitinq iddiasına düşməsi, bir daha AXCP sədrinin erməniliyini təsdiqləyir.

Ən maraqlısı isə budur ki, cinayətkar Ə.Kərimli elə zənn edir ki, "Məhsul" adını daşıyın stadionda bu dəfə mitinqləri "məhsuldar olacaq." O, məhz bu arzu ilə yaşayır: "AXCP sədri heç vaxt adam olmayıb, olmayacaq da. Cinayətkar, əxlaqsız və erməni nökəri Ə.Kərimlinin "bəlkə də qaytardılar" xülyası bir daha baş tutmayacaq. Bunu bilə-bilə mitinqdən başqa siyasi mübarizə üsulu tanımır. Ağızlarında bir söz var ki, hakimiyyətə gələk. O da heç vaxt olmayacaq".

## <u>Hafiz Hacıyev:</u> "Əli Kərimli "siyasi fahişə"dir"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev AXCP sədri Ə.Kərimli barədə üzə çıxan xəyanətkarlıq faktlarına münasibətini bildirərkən, onu "siyasi fahişə" adlandırıb: "Yadınızdadırsa, hələ Taleh Bağırzadə məsələsində sübuta yetirilmişdi ki, Ə.Kərimli müəyyən xarici ölkələrin kəşfiyyat orqanlarına nökərçilik edir. Hətta sübut etməyə də hazıram ki, bunların adamları qonşu ölkədə gizli danışıqlar apararaq, ölkəmizdə sabitliyi pozmağa yönəlmiş planlar düzüb-qoşublar: Həmin vaxtlar, özləri də dolayısı ilə etiraf edirdilər ki, tapşırıqlar əsasında işləyirlər. Çox keçmədi, məlum Nardaran hadisələri baş verdi. Ona görə də, hər zaman demişəm, Ə.Kərimli stabil insan deyil, belə adamlara heç nədə etibar etmək olmaz".

H.Hacıyev bildirib ki, ona kim çox pul verərsə, həmin dairələrin qucaqlarına atılır: "Yəni bu fərdlərə siyasətdə siyasi fahişə və siyasi pozğun deyirlər. Ümumiyyətlə, Ə.Kərimliyə kim pul verirsə, onların qucağında oturur, özü də məmnuniyyətlə, məsələn, Qərb verəndə Qərbin, Şərq verəndə Şərqin, Şimal da verəndə Şimalın qucağında özünü rahatlayır. Çünki bu ünsürə imkan verilərsə, daha böyük xəyanətlərə imza atacaq. Müxtəlif dövlətlərin Azərbaycanda müəyyən maraqları var və bu maraqları həyata keçirməkdən ötrü Ə.Kərimli kimi adamlardan istifadə edirlər. Misal üçün, mənim də Azərbaycanda müxtəlif diplomatik nümayəndəliklərdə görüşlərim olur və həmin vaxtlar mənə elə təkliflər olunur, ancaq söz yox ki, Vətənimin, dövlətimiz maraqları mənim üçün hər şeydən yüksəkdədir. Ə.Kərimli üçün isə, bu amil mövcud deyil. İndi elə adamlar var ki, bütün yerlərə işləməklə, özlərini satırlar. Ona görə də, bunların qarşısı alınmalıdır və mən qarşıma məqsəd qoymuşam ki, bu cür siyasi fahişələrin sonuna tezliklə çıxacağam".

***Rəfiqə HÜSEYNOVA***

# Rumıniyada qripdən ölənlərin sayı 87 nəfərə çatıb



Rumıniyada qripdən ölənlərin sayı 87 nəfərə çatıb. Xəstəliyin ağırlaşması səbəbindən son günlərdə 5 nəfər vəfat edib. Həkimlərin sözlərinə görə pasiyentlər xroniki xəstəlikdən əziyyət çəkirdilər və qripdən peyvənd olunmayıblar. Rumıniya ilə yanaşı sərhəd ölkələrdə də xəstəlikdən ölənlərin sayı artır. Ukrayna və Bolqarıstanda vəziyyətin daha ağır olduğu qeyd olunub.

# Tramp: "İŞİD-in zəbt etdiyi ərazilər gələn həftə azad olunacaq"



İŞİD terror qruplaşmasının Suriyada və İraqda zəbt etdiyi ərazilər gələn həftə 100 faiz azad oluna bilər. Çox güman ki, biz bu barədə gələn həftə bəyan edəcəyik. AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident Donald Tramp İŞİD terror qruplaşması ilə mübarizə üzrə ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiya üzvlərinin toplantısında deyib. D.Tramp, həmçinin xəbərdarlıq edib ki, bunun üçün rəsmi məlumat veriləcək.

ABŞ hərbçiləri və kəşfiyyatçıları bəyan ediblər ki, İŞİD antiterror əməliyyatları başlamamışdan qabaq da zəbt etdiyi ərazilərdən çıxa bilər. Donald Tramp İŞİD-in təbliğat mexanizmindən, bu terror qruplaşmasına Avropadan və digər regionlardan terrorçuların cəlb edilməsindən də danışıb. "Uzun müddətdir ki, onlar internetdən bizdən yaxşı istifadə ediblər. Lakin bu, artıq belə deyil", - deyə D.Tramp əlavə edib.

TƏRS BAXIŞ

# AXP sədrinin iddiası Müsavatı qarışdırdı, AXCP-ni isə...

*Yaxud Pənah Hüseynin fikirləri düşərgədaxili vəziyyəti gərginləşdirib*

***Müsavat partiyasının sabiq başqanı İsa Qəmbərin yenidən bu posta geri dönməsi ətrafında gəzən söz-söhbət yenidən gündəmə gəlib. Buna səbəb, AXP sədri Pənah Hüseynin "İsa Qəmbər öz yerində oturub" tipli iddiasıdır. Daha dəqiq desək, millət vəkili Zahid Orucun mətbuata verdiyi müsahibəsində dağıdıcı müxalifət düşərgəsi ilə bağlı səsləndirdiyi ifadələr AXP sədrinin İ.Qəmbəri müdafiə etməsinə səbəb olub.***

Xatırladaq ki, Z.Oruc sözügedən müsahibəsində P.Hüseynin AXCP sədri Əli Kərimlinin deyil, məhz İ.Qəmbərin "ana müxalifət lideri" olduğunu sərgiləyir və Ə.Kərimli bunu bildiyi üçün əlinə düşən hər imkandan istifadə edir. Yəni İ.Qəmbəri "vurur". Nəticədə, AXP sədri Müsavatın sabiq başqanı barədə ikibaşlı fikir bildirib və demək istəyib ki, o, partiyanın başqanı olmasa da, oranı idarə edir, eyni zamanda, "ana müxalifətçi" olaraq, öz yerindədir və s. Söz yox ki, AXP sədrinin fikirləri həm Müsavat, həm də AXCP-



də daxili gərginlik yaradıb.

## Kəskin qıcığın yaranmasına daha bir səbəb

Misal üçün, Müsavat başqanı Arif Hacılı heç vaxt istəməz ki, partiyanın növbəti qurultayında İ.Qəmbər yenidən öz başqanlıq postuna dönsün. Hətta İ.Qəmbərə qarşı müsavatdaxili qruplaşmanın bu və ya digər şəkildə işlər aparması kifayət qədər bəllidir. Bu məsələdə, A.Hacılının qardaşı Mustafa Hacıbəyli əsas rol alıb və qardaşı tərəfindən təlimatlandırılıb.

Digər tərəfdən, AXCP sədri Ə.Kərimli əzəli və əbədi düşməni elan etdiyi Müsavatın "ana müxalifət partiyası" olmasına qarşı fəaliyyət göstərməkdədir. Nəticədə, AXP sədri P.Hüseynin fikirləri hər iki siyasi müxalifət partiyasında kəskin qıcıq yaradıb.

## Pənah Hüseyn İsa Qəmbərlə hansı razılığa gəlib?

Beləliklə, fakt budur ki, P.Hüseyn, quyuya daş atıb və bu daş, quyu əvəzinə iki partiyanın - AXCP ilə Müsavatın bostanına gedib düşüb. Bu hal isə, daha bir ehtimalı şərtləndirir - P.Hüseyn, kimsədən gizlətmədiyi İ.Qəmbərə pərəstliyini indi, açıq-aydın sərgiləyir, yəni reklam edir. Burada isə, Müsavatın eks-başqanı ilə müəyyən razılaşmanın da olduğunu istisna etmək olmaz. Daha doğrusu, İ.Qəmbər əlində olan son rıçaqlarını istifadə edib, müxalifətə "ana müxalifət lideri" statusunda geri dönməyi qarşısına məqsəd qoyub. Ancaq göründüyü kimi, bu, ona elə də asan başa gəlməyəcək. Çünki onun qarşısını kəsən iki siyasi müxalifət partiyasının radikal baxışlı rəhbərliyi var - Ə.Kərimli və A.Hacılı...

**Rövşən RƏSULOV**

# "Freedom House" köhnə havasını çalır

*Radikal müxalifət isə bu hava altında oynamaqda davam edir*

***Azərbaycanda həyatın bütün sahələrində əsaslı dəyişikliklər baş verir. Reallaşdırılan islahatların dinamikliyi də, belə deməyə zəmin yaradır ki, bir sıra xarici təşkilatlar bu gerçəklikdən narahat olur və qıcıqlanırlar.***

Məhz "Freedom House" adlı təşkilat da həmin qərəzli qurumlardan biridir və hər il ölkəmizlə bağlı hesabatın-da açıq-aşkar "simasını" göstərir. "2019-cu il dünya ölkələrində azadlığın vəziyyəti haqqında" adlı hesabatda da eyni hal müşahidə olunub və Azərbaycanın 11 xal topladığı deyilir. Ermənistan 51, Gürcüstan isə 63 xal əldə edərək "qismən azad" ölkələr siyahısında yer alıblar ki, burada da aşkar qərəzin olması göz önündədir. Digər tərəfdən, "Freedom House"nin işğal altındakı Dağlıq Qarabağ ərazilərimizin ayrıca dövlət kimi göstərilməsi isə, artıq həyasızlığın son həddi kimi qiymətləndirilməlidir. Hətta "Dağlıq Qarabağ Respublikası" "qismən azad" olaraq qeyd olunub.

## Bu qurumun anti-Azərbaycan xarakterli fəaliyyət göstərmək missiyasını üzərinə götürməsi artıq fakta çevrilib

Ümumiyyətlə isə, Azərbaycanda demokratikləşmə, insan hüquq və azadlıqlarının təsbit edilməsi və mətbuat, sosial media istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasətinin əldə etdiyi ardıcıl nailiyyətləri görməzlikdən gələn bu qurumun anti-Azərbaycan xarakterli fəaliyyət göstərmək missiyasını üzərinə götürməsi, artıq fakta çevrilib. Yalnız "Freedom House" deyil, eyni zamanda, "Human Rights Watsh", "Amnistey İnternational" kimi subyektiv məqsədlərə xidmət göstərən anti-Azərbaycan xarakterli təşkilatlar ölkəmizin demokratik və milli maraqlarına qarşı aparılan qərəzli kampaniyaların fəal iştirakçıları qismində çıxış edirlər. Halbuki Azərbaycanın ictimai-siyasi dairələri dəfələrlə bir sıra beynəlxalq təşkilatların hesabatlarının qərəzli olması barədə fikirlər bildirməklə, haqlı etirazlarını bəyan ediblər.

## Hətta işğal altında olan Qarabağımızın "qismən azad olan ölkə" olaraq, qurum kimi təqdim edilməsi radikallara heç bir təsir göstərmir

Daha bir hiddət doğuran məqam, "Freedom House"nin bəlli və riyakar hesabatlarına dağıdıcı müxalifət düşərgəsi "liderləri"nin, onların sosial şəbəkə dəllallarının sevincli hisslər bildirmələridir. Belələri sanırlar ki, Azərbaycanı hədəfə alan istənilən təşkilat, hətta Ermənistanla ən yaxın olan dairələr bunların hakimiyyətə gəlmək "şansları-nı" artırır. Hətta işğal altında olan Qarabağımızın "qismən azad olan ölkə" olaraq, qurum kimi təqdim edilməsi radikallara heç bir təsir göstərmir. Əksinə, onlar "Freedom House"nin işğalçıların, separatçıların maraqlarından çıxış etməsini açıq-aşkar, hətta izafi siyasi həyasızlıqları ilə dəstəkləyirlər. Əbəs deyil ki, bu gün AXCP, Müsavat, "REAL" və s. müxalifət partiyaları, həmçinin, "Milli Şura" tipli satqın qurumlar sosial şəbəkələrdə sözügedən böhtan xarakterli "hesabata" dəstək göstərməkdədirlər. Bu isə, onların, bilavasitə erməni lobbisi ilə aşkar əlaqələrinin bariz sübutudur. Sual oluna bilər ki, nəyə görə sizlər, müxalifətçi siyasi partiya nümayəndələri olaraq, Dağlıq Qarabağın Azərbaycanın işğal altındakı əraziləri olduğuna görə, "Freedom House"nin "hesabatına" mənfi, ittihamedici fikirlər bildirmirsiniz? Məhz bu reallıq bir daha həmin ünsürlərin yalnız satqınçılıq xislətlərinə malik olmalarını kifayət qədər sübuta yetirir.

Bütövlükdə isə, Azərbaycan xalqının böyük əksəriyyəti ölkədə reallığın nə olduğunu yaxşı bilir. Qanuna hörmət edən hər bir şəxs ölkəmizdə yaşayıb, yaradıb, təhsil alıb, işləyə bilir. Ölkəmizdə dini tolerantlıq, multikulturalizm dəyərlərinin qorunub-inkişaf etdirilməsi ən aparıcı Qərb ölkələrinə nümunə və örnəkdir. O cümlədən, Azərbaycan demokratik-hüquqi dövlət olmaqla, demokratiya uğrunda apardığı işləri davam etdirir. Bu cür ermənipərəst təşkilatların qondarma hesabatları isə, həm onların, həm də onlara dəstək göstərən "sapı özümüzdən olan baltaların" iç üzünü, kirli maraq və siyasi həyasızlıq məramlarını ortaya qoyur.

**Rövşən RƏSULOV**



**Təhmasib Novruzov**

# Kar-kor, maskası yırtıq "kirpi"lər

***Azərbaycan folklorunda yanıltmac deyilən bir janr var. İlk baxışda bu yanıltmaclar nitqin inkişafına yardım edən bir vasitə təsiri bağışlayır. Amma elə yanıltmaclar da var ki, yaradıcı xalq digər janrlarda olduğu kimi, burda da dərin məna kəsb edən fikir yükü formalaşdırıb. Özünü müxalifət adlandırıb, meydanlara atılan, bəzi siyasi oyunbazların indiki fəaliyyətini izlədikcə, belə yanıltmaclardan birini xatırlayıram.***

Söhbət "bir dərədə iki kar-kor, kürkü yırtıq kirpilər" haqqında məşhur yanıltmacdan gedir. Bu yanıltmacdakı "kürk" sözünü "maska" sözü ilə əvəzləsək, (Çünki "kürk"dən, özü də "sarı kürk"dən artıq firənglər istifadə ediblər) bizim əzəli və əbədi müxalifətimizin indiki durumu ilə səsləşən çox qəribə bir bədii tablo yaranar. Bir-iki cümləsini deyim, siz də oxuyun və görün ki, yanılmıram: "Getdim gördüm bir dərədə (Oxu: "Məhsul" stadionunda) iki kar-kor, maskası yırtıq kirpi oxlarını qabardıb dava eliyir. Gördüm ki, dişi kar-kor, maskası yırtıq kirpi erkək kar-kor, maskası yırtıq kirpinin maskasını yamamaqdansa, erkək kar-kor, maskası yırtıq kirpi dişi kar- kor, maskası yırtıq kirpinin maskasını yamayır..." Burda kirpi obrazı da bizim meydanlarda at oynatmaq istəyən, utanıb-qızarmadan özlərini "xilaskar" kimi təqdim edən bəzi-bəzi xalis kar siyasi biznes həvəskarlarının prototipidir. Niyə bu yanıltmac mənim diqqətimi cəlb elədi, indi deyim, siz də bilin. Bu kar-kor, maskası yırtıq beş-üç "kirpi"nin, heç olmasa, yanıltmacdakı kirpilər qədər bir-birinin maskalarını yamamağa qabiliyyətləri çatarmı, görəsən? Əsla! Çünki hamısının yırtılmış maskaları Avropada yamanıb, sonra hazır vəziyyətdə göndərilir ki, geyinin, çıxın meydanlara, qorxmayın, pulunuzu da verəcəyik, sizə dəstək də olacağıq. Niyə də deməsinlər, bu üsullarla Liviyada, İraqda, Əfqanıstanda, Misirdə, daha haralarda milyardlar qazanıblar. İndi üstündən beş-on milyon bizim maskalı "kirpi"lərə xərcləsələr, kasıb düşməyəcəklər ki! Fərq ondadır ki, bu sadaladığım ölkələrdən fərqli olaraq, Avropa ölkələrində rəngli zadlardan da istifadə edirlər. Məsələn, Fransada sarı, Portuqaliyada mavi, Yunanıstanda çəhrayı, Gürcüstanda qızılı və s. rənglərdə müxtəlif geyimlər göndərdikləri kimi, bizim zavallılara da qara maska göndərirlər. Niyə maska və niyə qara? Haqlı sualdı, deyilmi? Çünki Avropada da bilirlər ki, bizim ortaya düşən toy toğlularımız həm kardılar, həm də kor. Korluq qaranlıq, qaranlıq da qara rəng əlamətidir. Ona görə də, bunlara qara rəngli maskalar göndərirlər. Bir də, ona görə qara maska göndərirlər ki, illərdir avropadakıların verdiyi milyonlar müqabilində onların heç bir istəklərini həyata keçirə bilmədiklərindən, üzləri ağalarının yanında qaradır. Ona görə də, müzakirə-filan da etmədən, bizim "kirpi"lərə qara maska göndəriblər. Həm də jilet, köynək - filan yox, ona görə, məhz maska göndəriblər ki, az qala otuz ildi onlar meydanlarda-dı, üzləri sürtülüb. Bu sürtülmüş üzləri gizlətməyin də bir yolu var, o da maska taxmaqdır. Nə deyirik, maskaları mübarək! Bu millət, həm də elə "kirpi"lərin özləri (Axı onlar özləri də bir-birinin maskalarını yırtmaqda pərgardılar!) çox tezliklə onları da yırtacaq və altında gizlənən əsl simalarını dünyaya yenidən nümayiş etdirəcək. Bax, o zaman bir yanıltmac da onların olmayan "şərəfləri"nə ithaf edəcək yaradıcı xalq. Amma bu yanıltmacda "yamamaq"dan deyil, "yırtmaq"dan söhbət açılacaq. O yanıltmacın ilk iki cümləsi də, çox güman ki, belə olacaq: "Getdik gördük bir meydanda altı kar-kor maskalı xalis kar çığırıb- bağırır. Baxıb gördük ki, meydanın bir kənarında erkək kar-kor maskalı xalis kar dişi kar-kor maskalı xalis karın maskasını yırtmaqdansa, dişi kar, kor maskalı xaliskar erkək kar-kor maskalı xalis karın maskasını yırtır..." Ardını saxlayaq yaradıcı xalqımızın düzüb-qoşmasına.

# Sorosun adamı yenidən gündəmdə

## Arif Əliyevin "canfəşanlığının" görünməyən tərəfləri

***Azərbaycanın mətbuatında qrantyeyən kimi tanınanlardan biri də məlum sifarişlər əsasında yaradılmış "Media Klubu" adlı saxta qurumun "jurnalistika canfəşanı" Arif Əliyevdir. Bu, həmin qurumdur və həmin A.Əliyevdir ki, birbaşa Soros fondunun tabeliyində müstəqil Azərbaycan mətbuatına zərbə vurmağa çalışır. Əlbəttə ki, yan-yörəsindəkilərlə bir yerdə. Bu dəfə də Soros fondu tərəfindən növbəti əmr gəlib - KİVDF-nin print-media ilə bağlı qəbul etdiyi məlum qərarına qarşı siyasiləşmiş fikirlər irəli sürmək, bununla da, Azərbaycan dövlətinin media siyasətini hədəfə almaq.***

**"Haqq-ədalət" prinsipindən çıxış etdiyini zorla mətbuat cameəsinə sırımağa cəhd edən Arif Əliyevin reallıqda beş-on dollara satılan biri olduğunu hər kəs yaxşı bilir**



Məsələnin daha bir tərəfi ondadır ki, sözügedən mövzu ilə bağlı dərhal hərəkətə keçib, özünün "ağıllı-ağıllı" sözlərini müsahibə şəklində, yəni əvvəlcədən planlaşdırılmış sual-cavab qismində ictimailəşdirən A.Əliyev, gerçəklikdə, özünün media pərdəsi altında "hansı yuvanın quşu" olması faktını unudur. "Haqq-ədalət" prinsipindən çıxış etdiyini zorla mətbuat cameəsinə sırımağa cəhd edən Arif Əliyevin reallıqda beş-on dollara satılan biri olduğunu da hər kəs yaxşı bilir və xatırlayır. Xüsusilə, yazılı mətbuatda illərdir fəaliyyət göstərən jurnalistika adamları hər şeyin necə - nə cür olduğunu daha müfəssəl bilirlər. Onun, bütövlükdə isə, "Media Klubu" adlı saxta qurumun məqsədi-məramı barədə daha öncələr də danışılıb, yazılıb və müzakirələr aparılıb. Ona görə də keçək əsas mətləbə...

Sirr deyil ki, A.Əliyev hər zaman xaricdən Azərbaycana axan milyonlarla dolları mənimsəyən adamlardan biri kimi tanınır və onun illərdir ki, müxtəlif ölkələrdə inqilablar adı altında iğtişaşlar, anarxik etirazlar törədən, belə çirkin missiyalar vasitəsi ilə milyardlar qazanan Corc Sorosa aid fondla gizli əməkdaşlıq etməsi müxtəlif rakurslardan sübuta yetirilib. Əlbəttə ki, Sorosun öz bədbin niyyətlərini reallaşdırmaqdan ötrü müxtəlif ölkələrin media vasitələrindən, eləcə də, sosial mediasından istifadə etdiyi məlumdur. Məhz Arif Əliyev və "Media Klubu" bu günün özündə də sorosçuluq missiyasının aparıcı fiqurantlarındandırlar.

**Qrantları bölüşdürənlər yenə də bir aradadırlar və mətbuatımızın inkişafına doğru atılan hər addıma qarşı siyasi "qulp" qoymaqla məşğuldurlar**

Elə də uzağa getməyək və daha bir xatırlatmaya diqqət yetirək - Corc Soros, mətbuata yardım adı ilə müxtəlif ölkələrdə öz əlaltılarına yüz minlərlə vəsait göndərib. A.Əliyev də qərbli dayısından kifayət qədər bəhrələnənlərdəndir. Guya o, bu pullarla Azərbaycanda mətbuatın inkişafına dəstək olubdur və s. Fəqət, fakt budur ki, istər A.Əliyev, istərsə də digər onun kimilər yüz minlərlə vəsaiti mənimsədilər, öz şəxsi vəsaitləri kimi aralarında bölüşdürdülər. Göründüyü kimi, həmin qrantları bölüşdürənlər, yenə də bir aradadırlar və mətbuatımızın inkişafına doğru atılan hər addıma qarşı siyasi "qulp" qoymaqla məşğuldurlar.

Onda sual yaranır - bəs hanı Soros dayınızdan aldığınız inkişaf pulları, hanı mətbəələriniz, qəzetləriniz, çoxsaylı saytlarınız, yayım firmalarınız və s. və i.a...?!

Yoxdur..!

**Arif Əliyev AXC hakimiyyəti dövründə də indiki kimi bənzər mənfi imicə və xəyanətkarlıq simvolikasına malik olub**

Amma buna baxmayaraq, KİVDF və ya Mətbuat Şurası, ümumilikdə isə, müstəqil mediamızın aparıcı zümrəsi dövlətin mediaya göstərdiyi qayğıdan danışırsa, eyni zamanda, mətbuatın tərəqqisi üçün qərarlar qəbul olunursa, bunlar meşələrdə ağac diblərində bitən zəhərli göbələklər kimi bir-bir çıxırlar ortaya və başlayırlar "ağıl qoymağa". Yaxşı, özünüzü bu qədər "ağıllı"-"kamallı" hiss edirsinizsə, niyə bir dəfə də özünüzdə cürət tapıb, uğursuzluğunuzun səbəblərini yararsız fəaliyyətinizdə axtarmırsınız, etiraflarınızı etmirsiniz? Yoxsa qorxursunuz ki, Soros daydayınız sizdən küsər və bir daha qaranlıq bank hesabları, daha dəqiq desək, Gürcüstan bankları vasitəsi ilə qrantlarınızı kəsib-eləyər? Bax, burada əsl həqiqətlər yenidən ortaya çıxır. Nə millət, nə dövlət, nə də ölkə maraqları onları qətiyyən maraqlandırmır. Pul...pul...pul...Təki satmağa elə milli dövlətçilik maraqları olsun, qalanı boş şeylərdir (?!-R.N.).

Beləliklə, həm də nəticəyə gələ bilərik ki, A.Əliyevin özünü "aparıcı media simalarından biri kimi" təqdim etməsi, onun bugünkü fəaliyyəti ilə yox, əsasən, onun keçmiş fəaliyyəti ilə daha çox bağlı ola bilər. Çünki faktlar mövcuddur ki, Arif Əliyev AXC hakimiyyəti dövründə də indiki kimi bənzər mənfi imicə və xəyanətkarlıq simvolikasına malik olub. Bunu elə həmin dövrlərdə mətbuatda olan, bu gün də mediada təmsil olunan sayt və qəzet baş redaktorları da təsdiq edə bilərlər. Təsdiq edə bilərlər ki, bu fərd, pul-para üçün daim mənsub olduğu media cameəsini hər an satmağa hazırdır, elə indinin özündə də.

**Belə olan halda, Arif Əliyevin yaxasından yapışan da elə Soros dayısı olmalıdır ki, bəs ay Arif, ay bacıoğlu, bəs necə oldu sənə verdiyim 1 milyon dolların aqibəti?**

Yəni mövcud fəaliyyətində də, bu adam, beynəlxalq media qurumlarında media üzrə "tənqidçi-ekspert" kimi çıxış edir və xaricdən "müxalif və müstəqil media"nın inkişafına ayrılan maliyyə yardımlarının tənzimlənməsi ilə məşğul olur. Yəni əməlli-başlı qrantlar yeyir, yedikcə də, gözü doymur və daha çox tələb edir.

Sonda isə A.Əliyevin media rəhbəri kimi, 10-11 il öncə, xaricdən aldığı 1 milyon ABŞ dolları (!!!-R.N.) həcmində maliyyə yardımı hesabına bir il işıq üzü görmüş "Gün Səhər" qəzetinin baş redaktoru kimi "fəaliyyətinə" toxunmaq, bunu növbəti dəfə xatırlatmaq yerinə düşərdi. Bu gün heç bir media adamı deyə bilməz ki, adi, bir neçə səhifəlik qəzetin bir illik çapına 1 milyon dollar xərcləmək lazımdır! Belə olan halda, A.Əliyevin yaxasından yapışan da elə Soros dayısı olmalıdır ki, bəs ay Arif, ay bacıoğlu, bəs necə oldu sənə verdiyim 1 milyon dolların aqibəti? Hələlik, nə Soros dayısı ondan soruşur, nə də A.Əliyev cürətə gəlib, etiraflarını edir. Bunların yerinə isə, düşür ortalığa və sual-cavabı qabaqcadan bəlli olan sifarişli müsahibələrlə gündəmdə qalmağa çalışır. Qalsın görək, nə vaxta qədər qalacaq?..

***Rövşən NURƏDDİNOĞLU***

## Azərbaycanda yol qəzaları: bir ildə 722 ölüm



2018-ci ildə Azərbaycanın avtomobil yollarında 1817 və ya 2017-ci illə müqayisədə 0,9 faiz az yol-nəqliyyat hadisəsi baş verib. SİA-nın məlumatına görə, bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 1,5 faiz azalaraq 2433 nəfər olub. Onlardan 722-si həlak olub, 1711-i isə yaralanıb. Hadisələrin 40,9 faizi gündüz, 38,7 faizi gecə, 20,4 faizi isə toran vaxtı baş verib, 29,1 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib.

Yol-nəqliyyat hadisələrinin 90,0 faizi yaşayış məntəqələrində baş verib, bu hadisələr nəticəsində həlak olanların sayı 2017-ci ilə nisbətən 7,3 faiz artaraq 556 nəfər, yaralananların sayı isə 0,9 faiz artaraq 1628 nəfər olub. Bütün yol-nəqliyyat hadisələrinin 47,5 faizi (əvvəlki illə müqayisədə 8,0 faiz az) nəqliyyat vasitələrinin və piyadaların, 32,4 faizi (4,3 faiz çox) bir neçə nəqliyyat vasitəsinin, 20,1 faizi (10,6 faiz çox) bir nəqliyyat vasitəsinin iştirakı ilə baş verib.

Yol-nəqliyyat hadisələri nəticəsində həlak olanların 76,5 faizini, yaralananların isə 74,1 faizini kişilər təşkil edib. Nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması səbəbindən ölümlə və ya xəsarətlə nəticələnən 49 hadisə baş verib, nəticədə 27 nəfər ölüb, 36 nəfər yaralanıb. Belə hadisələrin 63,3 faizi minik avtomobillərinin sürücüləri tərəfindən törədilib.



## Düyünlər haçalandıqca...

**RƏFİQƏ**

***25 ildir ki, AXCP sədri Əli Kərimlinin xəyanətləri davam edir. Hər ötən gün də bu siyahıya yeni xəyanətlər əlavə olunur. Son 20-25 illik siyasi tarixinə nəzər yetirmək kifayətdir ki, Ə.Kərimlinin xəyanətlərinə şahid olasan. Naturasında xəyanət olan Ə.Kərimli üçün satqınlıq etmək adi bir şeydir. Məhz bunun nəticəsidir ki, ağlı başında və əqidəsi bütöv olan heç kim satqınları sevməyib. Satqınlara yalnız satqınlar dəstək veriblər ki, bu da "taylı tayını tapar" məsələsinin hər zaman özünü doğrultmasından irəli gəlir.***

Elə AXCP ilə Müsavat arasında baş verən ziddiyyətləri və qarşıdurmaları görürək. Əslində, bu cür savaşların kökündə ən əsas məsələ kimi "ana"-"ata", sonra da "müxalifətin lideri" olmaq iddiası durur. "Ana"-"ata" axtarışı ilə hələ də atasız və anasız qalan AXCP-Müsavat "birləşmiş müxalifət"in 19 yanvarda keçirdiyi mitinqindən sonra AXCP sədrinin "mənəm-mənəmliyi" yaman yüksəlib. Neçə illərdir ki, "ana" - "ata" axtarışına çıxan Əli-İsa davası da elə buna görədir. Bildirirlər ki, bu məsələ həll olunsa düşərgədə bir adama tabeçilik hökm sürər. Yəni bu, sirr deyil. Hər dəfə də ortaya daha bir ifşa nüansları çıxır ki, bunu da ictimaiyyətə qarşı tərəflər bəyan edir.

Məsələn, xatırlatmaq olar ki, hələ ötən aylarda keçirilən və demək olar ki, heç bir uğurlu nəticə əldə edilməyən mitinqlər zamanı həm AXCP, həm də Müsavat sosial şəbəkə və mətbuatda ən sərt suçlamalara getdilər. Hələ o vaxt Müsavat AXCP-"Milli Şura" ikiliyi ilə birgə mitinq keçirmək təklifi vermişdi. Ancaq Müsavat başqanı A.Hacılının və partiyadaxili klanının bu çıxışdan sonra cəbhəçilər daş atıb başlarını tutdular ki, onların növbəti mitinq keçirmək planları yoxdur, ona görə də, müsavatçıların təklifi heç bir rol oynamır. Hətta AXCP sədri Ə.Kərimli "Milli Şura"nın üzvləri ilə birgə mitinq keçirmək qərarı vermədiklərini iddia ediblər. Halbuki onlar "növbəti mitinq" vaxtını da təyin etmişdilər. Ona görə də, "kərimovçu"ların bu cür davranışları Müsavat cameəsində susqunluqla qarşılanmadı və onlar da, əlbəttə ki, ittihamlarını irəli sürdülər. Yəni qərara gəldilər ki, "Milli Şura" Müsavata görə mitinq qərarını dəyişib. Beləliklə, bu cür bənzər ittihamlar 25 ildən artıqdır ki, bir-birinə calanır və əsası, hətta AXC-Müsavat iqtidarına söykənir.

Elə bu arada Elbəyi Həsənlinin dediyi fikirlər yadıma düşdü: "Bir daha əmin oldum ki, məhz Ə.Kərimli başda olmaqla, "Milli Şura" və AXCP, müxalifətin bir araya gəlməsinə imkan vermədi. Soruşmaq ayıb olmasın, sən kimsən ki, "mənəm-mənəm" deyirsən? Artıq sənin kimliyin, hansı dəşiklərə girdiyin, hansı cinayətləri etdiyini də məhkəmə zamanı şahidlərin dilindən eşitdik. İndi bəlkə susasan?!"

Necə susa bilər? Ancaq qanun səni susduracaq və bu gün baş verənlər sənin missiyanın tam iflası deməkdir, Ə.Kərimli. Niyə sən xalqa üz tutub demirsən ki, "bu-mən Ə.Kərimliyəm ki, müxalifətin bir araya gəlməsinə, dağılmamasına imkan vermədim". Çünki keçmişin, bu günün, əxlaqın, mənəviyyatın, bütünlüklə, həyatın ləkəlidir. Bəli, xalq bütün həqiqəti bilir. Sadəcə, sən Ə.Kərimlinin bu etirafı cürət edib dilə gətirmək üçün adamlığın yoxdur. Bu baxımdan da, AXCP və Müsavat partiyalarının tam istəklə, qətiyyətlə xalqın maraqlarına işləmələri barədə deyilən pafoslu sözlər artıq məzarlığa gömülmüş və çürümüş ifadələrdir. İntriqantçılıq və qarşıdurmalar hər iki təşkilatın real olaraq axrına çıxıb. Bircə o qalır ki, həmin etirafı kişi kimi deyə biləsən, bunu da nə AXCP-dən, nə də Müsavatdan gözləməyə dəyməz.

# Totalitarizmdə insan hüquqlarının pozulması

***Totalitarizm rejimlər XX əsrdə həm Almaniyada Hitler tərəfindən, həm də SSRİ-də Stalin tərəfindən bərqərar olunmuşdu. 1950-ci ildə yazdığı "Avtoritar şəxsiyyət" əsərində T.Adorno avtoritar şəxsiyyətin tipologiyasını yaradaraq, nasist təbliğatına meyil edən insanların ümumi cəhətlərini ortaya çıxarır.***

Belə insanlar üçün mənəviyyat, əxlaq, həqiqi mədəniyyət kimi məfhumların artıq öz dəyərlərini itirdiyini və onlarda öz müqəddəratını həll etmə, özünü dərk etmə işində "totalitar sindrom"un yarandığını qeyd edir. Əfsuslar ki, Adornonun qələmə aldığı əlamətlər son onilliklər ərzində, bir növ qlobal xarakter almış, insanları monstr-mədəniyyətin, daha doğrusu, mənəviyyatsızlığın istehsalçısına və istehlakçısına çevirmişdir. Bu gün, hətta özlərini demokratiya nümunəsi sayan ölkələrdə avtoritar düşüncəli şəxs bəzən daha üstün tutulur, ədalət və humanizm carçıları isə istehza, qınaq obyektinə çevrilirlər. İctimai rəy, sanki məqsədli surətdə qəbahətlər istiqamətində formalaşdırılır. Ola bilsin ki, bunun özü elə müasir bəşəriyyətin qlobal böhranının səciyyəvi təzahürüdür.

Fəlsəfə elmləri doktru Əbdülhəsən Abbasov yazır: "Tarixi araşdırmalar göstərir ki, cəmiyyətlərdə qeyri-sabitlik yarananda, dərin böhranlar baş verəndə, totalitarizm meyilləri güclənir. Bu zaman baş verən proseslər idarəetmənin mərkəzləşməsi, təsərrüfat fəaliyyəti üzərində nəzarətin gücləndirilməsi, idarə edəcək "dəmir biləyin" olmasının vacibliyi kimi motivlərlə müşayiət olunur ki, bu da nəticə etibarı ilə, totalitar rejimlərin bərqərar olmasına yol açır. Bu halda, bürokratikləşmə prosesi geniş vüsət alır, insanlara qarşı təqiblər artır, insanların hüquq və azadlıqlarından bəhrələnmək imkanları alınır. Bürokratiyanın güclənməsi ilə yanaşı, insanların bu bürokratik sistemdən asılılığını da gücləndirir. İctimai rəy isə, bütövlükdə, hakim bürokratiyanın maraq və məqsədlərinin təmin olunması istiqamətində formalaşdırılır. Səxsi düşüncə belə "obyektiv" ictimai rəyə tabe etdirilir.

Tarixə nəzər salsaq, görərik ki, totalitar quruluşlarda dağıdıcılıq meyilləri prioritet təşkil edir. Totalitar rejimlərdə baş verən qeyri-insani hadisələr, qəddarlıq, yaltaqlıq, təcavüzkarlıq, amansızlıq, riyakarlıq, yalançılıq, acgözlük, tamahkarlıq, qarət və talançılıq, zalımlıq və s. bu kimi xüsusiyyətlər bir növ legitimləşir''. Bütün səylərə baxmayaraq, totalitar rejimlər daxili destruksiya nəticəsində süquta uğrayırlar. Bəşər tarixi bunu dəfələrlə sübut etmişdir. Qeyd etmək istərdim ki, ictimai və insani destruktivliyin geniş və təfsilatlı araşdıranlardan biri də görkəmli filosof-psixoloq Erix Fromm olmuşdur. Onun "İnsan destruktivliyinin anatomiyası", "Özü üçün insan" əsərləri bu sahədə aparılan aşdırmalar içərisində indinin özündə də xüsusi yer tutur.

Totalitar sistemlərin səciyyəvi cəhətlərindən biri də odur ki, bu sistemlər cəmiyyət və insan həyatını, habelə, ictimai rəyi, bütövlükdə, dövlət nəzarəti altına alırlar. İdeoloji cəhətdən ziddiyyətli və əsaslandıqları sosial bazaların fərqli olmasına baxmayaraq, siyasi quruluş və idarəetmə metodları nöqteyinəzərindən totalitar sistemlər bir-birinə oxşayır. Cəmiyyət və insanlar üzərində total nəzarət, sərbəstliyin və təşəbbüskarlığın, siyasi iradənin boğulması, vahid ideologiya və lider ətrafında kütləvi partiyalaşma, informasiya vasitələrinin dövlətin əlində cəmləşməsi, cəmiyyətdə siyasi yekcinslik tələbləri, militarizm və s. bu cür əlamətlər totalitar sistemin əsas atributlarını təşkil edir. Totalitar sistemlərin insan haqlarına münasibəti, bilavasitə ideoloji baxışlardan asılıdır. Məsələn, dövlətə mütləq üstünlük verən italyan faşizminin ideoloji kredosu bir cümlədə ifadə edilmişdir: "Dövlətə qarşı və dövlətin xaricində heç bir şey ola bilməz, hər şey dövlətin daxilindədir".

Totalitarizm elə bir sistemdir ki, burada dövlətin malik olduğu ifrat müstəqilliyin və mütləqiyyətin qarşısında, demək olar ki, insana məxsus hər şey öz dəyərini itirir. Totalitarizm mənafe, iradə, məsuliyyət və vicdan məsələlərində, məhz özünü təmsil edir. Fərd yalnız dövlətin icazə verdiyi kimi yaşamalı və məsləhət bilinən "hüquq və azadlıqlarla" kifayətlənməlidir. Fərdin həyatının mənası və məqsədi dövlətin mənafeyi üçün çalışmaq və onun mütləqiyyəti naminə xidmət etməkdən ibarət olmalıdır. Dövlət tərəfindən fərdlərə verilən hüquq və azadlıqlar hədiyyə kimi qəbul edilməli, hətta bu hüquq və azadlıqlardan da yalnız dövlətin nəzarəti və göstərişi ilə istifadə olunmalıdır. Bu isə, əslində, dövlətin insan hüquq və azadlıqlarını tanımadığı faktını ortaya qoyur.

Ə.Abbasovun fikrincə, millətçi totalitar rejimin fərqləndirici bir səciyyəvi cəhəti də ondan ibarətdir ki, o, müəyyən bir irqə məxsus millət və həmin millətə rəhbərlik edən lider ideyasını özündə əks etdirir. Bu ideyanın mahiyyəti ondan ibarətdir ki, milləti formalaşdıran insanlar azad deyil və dövlətin timsalında rəhbərə tabedirlər. Bu zaman fərd dövlətin hakimiyyətini istisnasız qəbul edir və heç bir hüquq və azadlığa iddia etmir. Vahidləşmiş dövlət-partiya strukturu isə ictimai və fərdi həyatı, ictimai rəyi, bütün parametrləri ilə, total nəzarəti altında saxlamaqda və hər bir fəaliyyəti izləməkdə olur. Millətçi totalitarizmin insan haqlarına bu cür münasibəti qeyd olunanlarla məhdudlaşmır. Bu rejim, insanlar arasında irqi ayrı-seçkilik yaradaraq, "aşağı irqə məxsus insanlar"a (yəhudilər, qaraçılar və s.) qarşı soyqırımı törədilməsinə, buna qarşı çıxanlara isə repressiya tətbiq edilməsinə yönəldilmiş siyasət apararaq, ən qəddar siyasi sistem olduğunu sübut etmişdir.

Tədqiqatçılar totalitar rejimləri əsasən, iki kateqoriyaya bölürlər. Bunlardan biri sağ-milliyyətçi təmayüllü rejimlər olmuşdur ki, burada insan hüquqlarına mənfi münasibət müşayiət edilir. İkincisi isə, "sol totalitarizmi" təmsil edirdi ki, bu da, əsasən, kommunist dövlətlərdə qərarlaşır və birincidən nisbətən fərqli olan qarışıq rejimdir. Kommunist rejimi faşizm və millətçi sosializmdən məqsəd və ideologiya baxımından çox fərqlənirdi. Kommunizm ictimai və fərdi üsyan və inqilab yolu ilə dəyişdirmək niyyətində olan, kommunist partiyası tərəfindən idarə edilən sinfi mübarizə yolu ilə istismarçılığın aradan qaldırılmasına cəhd edən cərəyan kimi xüsusi mülkiyyətin ləğvini hədəf almışdır. Kommunizmin məqsədi proletariat hakimiyyəti altında sinifsiz cəmiyyətin və son nəticə kimi, dövlətsiz cəmiyyətin qurulması idi. Marksist nəzəriyyəsində, sinifli cəmiyyətlərdə iqtisadi cəhətdən fərqli statusa malik insanlar arasında hər hansı bir bərabərliyin mövcud ola bilməyəcəyi və zəif statusa malik şəxslərin hər hansı hüquq və azadlıqlarının mümkünsüzlüyü göstərilirdi. Həmin nəzəriyyəyə görə, insanların real hüquq və azadlıqlarına, həmçinin, onlar arasında bərabərliyə yalnız sinifsiz cəmiyyətdə nail oluna bilər.

Ə.Abbasov qeyd edir ki, ictimai praktikada kommunizm, proletar sinfinin əsas etibarı ilə kommunist partiyası ətrafinda birləşməsi, bu partiya tərəfindən həmin sinfin maraqlarının "təmin olunması" və mənafeyinin "qorunması" üçün yaradılan dövlətin iqtisadi, siyasi, sosial və mənəvi sahələri öz əlində inhisarlaşdıraraq, total nəzarət sistemini formalaşdırması ilə müşayiət edilmişdir. Bütün kommunist dövlətlərdə hakim nomenklatura, fəhlə-kəndli aristokratiyası yüksək statusa və səlahiyyətlərə malik olmuşdur. Bu dövlətlərin konstitusiyalarına nəzər salsaq, görərik ki, onların hamısında insanların söz, mətbuat, sərbəst toplaşmaq, tətil, küçə yürüşləri keçirmək və s. hüquq və azadlıqları (məsələn, SSRİ-nin 1977-ci il Konstitusiyasının 50-ci maddəsi, Ruminiyanın 1948-ci il Konstitusiyasının 31-ci maddəsi, Macarıstanın 1949-cu ü Konstitusiyasının 55-ci maddəsi) nəzərdə tutulsa da, onlar heç bir zaman həyata keçirilməmişdir. İnsan hüquqlarına yalnız sosial təminat prizmasından baxılması, bu haqların böyük bir qisminin olmamasını, qalanların isə dövlətin iradəsinə tabe edilməsini səbəbləndirmişdir. Bu, insan haqlarına dövlətdən xaricdə heç bir mövcudluq ehtimalı verməmək idi. İctimai rəyin taleyi də, bütövlükdə, dövlətin diktəsi altında olduğundan, o, faktiki haqların qorunmasında hansısa gücə və imkana malik deyildi.

Totalitarizm, bütün təzahür formalarına, ideoloji, tarixi təşəkkül və praktiki reallaşma fərqlərinə baxmayaraq, insan hüquq və azadlıqları ilə bir araya sığışmır. Fərdin azadlığı, mülkiyyət hüququ, şəxsi həyat, fikrini ifadə etmək azadlığı, söz azadlığı və s. hüquqların, hətta ən bəsit elementlərinə yer verilməyən, "hüquq"dan yalnız dövlətin maraqları naminə istifadə edilən siyasi sistemdə hər hansı hüquq və azadlıqların təmin edilməsi və müdafiəsini düşünmək belə mümkün deyil.

İnsan hüquqlarının fərqli ideologiyalar əsasında yaradılmış siyasi sistemlərlə münasibətini təhlil etdikdən sonra müasir dövrdə siyasi, iqtisadi, sosial, ictimai və mədəni inkişaf səviyyəsinə görə təsnif olunan inkişaf etməmiş, inkişaf edən və inkişaf etmiş ölkələrdə də insan hüquqlarının vəziyyətinin tədqiq edilməsi çox önəmlidir. Belə ki, bu zəmində mövzunun dərindən və geniş öyrənilməsi üçün daha böyük imkan yaranır, yeni idraki müstəvilər ortaya çıxır.

İnkişaf etməmiş ölkələrdə zəif iqtisadiyyat və çox aşağı səviyyədəki sosial şərtlər insanların həyat şəraitinə və ən əsası, hüquqlarının reallaşmasına güclü təsir edir. Bu ölkələrdəki qeyri-sabit iqtisadi vəziyyət insanların gəlirləri arasındakı kəskin fərqlər və sosial ədalətsizliklərlə müşayiət olunur. Bəzi hallarda bu ölkələr zəngin təbii ehtiyatlara malik olsalar da, sərvətlərdən rasional istifadə olunmaması nəticəsində, onların iqtisadiyyatlarının güclənməsi və xalqın rifahının yüksəlməsi baş vermir. Bu dövlətlər Qərbdə hakim olan prinsip və dəyərləri inkar edərək, insan hüquqları və azadlıqlarının təmin olunmasını həyata keçirmir və hətta bu hüquqların pozulmasında, bilavasitə iştirak edirlər.

İkinci kateqoriyaya aid olan inkişaf edən dövlətləri, şərti olaraq beş qrupa bölmək olar. Birinci qrupa zəngin təbii sərvətlərə malik olan, bununla belə, iqtisadiyyatları zəif inkişaf etmiş, sosial şərtləri az əlverişli olan dövlətlər daxildir (məsələn, Yaxın Şərq və Afrika regionundakı bəzi dövlətlər).

Bu dövlətlərdə təbii ehtiyatlardan əldə olunan gəlirlər cəmiyyətdə bütün təbəqələrin maraq və mənafeyinə yönləndirilməmiş və sosial ədalətsizliyə səbəb olmuşdur. İnkişaf edən ölkələrin ikinci qrupuna daxil olan dövlətlərdə isə vəziyyət fərqlidir. Sosialist inkişaf modelini əsas götürmüş bu dövlətlər cəmijyyətin bütün ictimai həyatını nəzərətdə saxlamaqla mövcud problemlərin həllinə səy göstərirlər. Bu dövlətlərdə sosial ədalət və bərabərlik, əsasən, təmin olunsa da, siyasi struktur baxımından onların əksəriyyəti vahid təşkilat ətrafında formalaşmış və fərdlərə məhdud çərçivədə azad fəaliyyət imkanı yaradılmışdır. Vətəndaşların siyasi hüquq və azadlıqları isə ikinci dərəcəli məsələ olaraq qalır.

İnkişaf edən dövlətlər kateqoriyasının üçüncü qrupuna isə Afrika, Asiya və Latın Amerikasının bir sıra dövlətlərini aid etmək olar. İkinci qrupdan fərqli olaraq, bu qrupa kapitalist inkişaf modelini əsas götürmüş və sosializmin bəzi elementlərini də nəzərə almış dövlətlər daxildir. Ölkənin inkişafına iqtisadi islahat və proqramlarla nail olmağa cəhd edən bu dövlətlərdəki siyasi idarəetmə sistemi "demokratik" sistem kimi bəyan edilir. Mahiyyətinə vardıqda, bu "demokratik" sistemin, əslində, rəhbər-partiya-ordu üçbucağında birləşmiş idarəetmə forması olduğu ortaya çıxır. Burada insan hüquq və azadlıqları dövlətin inkişafına maneə yaradan bir faktor kimi dəyərləndirilərək, onlara əhəmiyyət verilmir. Belə dövlətlər, adətən, qeyri-sabitlik, hərbi çevrilişlər, vətəndaş müharibələri və iqtisadi böhranlarla gündəmdə olurlar. İnkişaf edən ölkələrin başqa bir qrupuna avtoritar rejimli ölkələr daxildir. Bu qrupa daxil olan ölkələrdə qeyri-məhdud hakimiyyətə əsaslanan idarəetmə sistemi mövcud olur (Afrika və Orta Asiyadakı bəzi dövlətlər). Burada dövlətin hakimiyyəti mütləq olmur, vahid ideologiya əvəzinə, milli birlik konsepsiyası əsas götürülür. Bu dövlətlərdə demokratiyanın bəzi elementlərinə rast gəlinsə də, siyasi fəaliyyət məhdudlaşdırılır və siyasi hüquqlar, demək olar ki, idarə olunur. Belə rejimli ölkələrdə vətəndaşlar siyasi proseslərdə aktiv və təsirli iştirakdan məhrum olunur, onların hüquq və azadlıqları milli həmrəylik, milli maraqlar baxımından arzuolunmaz kimi təbliğ edilir. Beləliklə də, ictimai rəydə insan haqları mövzusu əhəmiyyətli bir yer tutmur.

İnkişaf edən ölkələrin beşinci qrupuna demokratik dəyərlər, o cümlədən, qanunun aliliyi, insan hüquqları, azad bazar iqtisadiyyatı, yaxşı idarəçilik kimi faktorlar mövcud olan, müasir inkişaf yolunu seçmiş dövlətlər (əsasən, Şərqi Avropa dövlətləri) aiddir. İkinci Dünya müharibəsindən sonra sosialist rejiminin bərqərar edildiyi bu ölkələr vahid partiya və ya diktatorların idarəsi altında yaşamışdır. Burada insan hüquq və azadlıqları simvolik formada mövcud olmuşdur. Sosializmin süqutundan sonra iqtisadi və sosial inkişafa nail olmaq naminə bu ölkələr demokratiya və insan hüquqları məsələsinə kifayət qədər diqqət yetirməsələr də, qəbul olunmuş konstitusiya və normativ-hüquqi aktlar bu hüquq və azadlıqlarının reallaşması və müdafiəsi üçün güclü hüquqi baza yaratmışdır. Eyni vaxtda, insan haqları mövzusu ictimai rəydə öz təsirli yerini tutmağa başlamışdır.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 8 fevral

## Erkən yaşda diş həkiminə gedən uşaq odontofobiyadan uzaq olur

Diş həkimindən qorxmaq odontofobiya, bəzən də dentofobiya və ya stomatofobiya adlanır. Hər on uşaqdan doqquzunda həmin hala rast gəlmək mümkündür. Onlar əsasən qandan iyrənir, həkim ağız nahiyəsində işləyərkən eşidilən səs-küydən qıcıqlanır, ağzı davamlı açıq saxlamaq məcburiyyətindən qorxur, həkimin əli onlara toxunanda narahatlıq hissi keçirirlər.



Bu barədə AZƏRTAC-a məlumat verən Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Yeganə Əsgərova deyib: "Qorxunun baş verməməsi üçün uşağı diş həkimi ilə erkən yaşda tanış etmək lazımdır. 2 yaşına çatmayan uşaqları diş həkiminə aparmaq məsləhətdir, çünki həmin yaşda olan uşaqların diş həkiminin kreslosuna oturmaqdan xoşları gəlir. Erkən yaşda ağ xalata öyrənən uşaq sonralar diş həkiminə gedərkən qorxu hissindən uzaq olur.

Həkimə getməzdən əvvəl orda olacaq hadisələr uşağa izah edilməli, psixoloji hazırlıq aparılmalıdır. Hətta müayinənin necə aparılacağı barədə onda təəssürat oyatmaq lazımdır. Uşağın əlinə qaşıq verərək "diş həkimi-xəstə oyunu" oynamaq onu həkimə qarşı mülayimləşdirir. Öz növbəsində, həkim də sonrakı seanslarda aparılacaq əməliyyat barədə ailə üzvlərinə və uşaqlara məlumat verməlidir. Diş həkiminə qarşı fobiyası olan uşaqlara təcrübəli mütəxəssis həkimlər seçmək lazımdır.

Stomatoloji müayinə və müalicə üçün seçilən klinikada uşaqların psixologiyasına uyğun dekorasiya, musiqi, maraqlı şəkillər və oyun otaqlarının olması böyük əhəmiyyət daşıyır. Uşaq nadinclik edərkən "sakit ol, yoxsa səni diş həkiminə apararam, dişini çəkdirərəm" demək düzgün deyil, çünki diş həkiminin qorxusuna səbəb olan faktorlardan biri də valideynin tərbiyədə bu cür səhvlərə yol verməsidir. Uşaqlarda həkimə qarşı qorxu hissi aşılamaq düzgün taktika deyil".

Psixoloq Yeganə Əsgərova daha sonra deyib: "Stomatologiyada istifadə edilən keyləşdirici krem və spreylər iynənin ağrısını hiss etdirmir. İynə vurdurmaqdan qorxanlar əməliyyatlarda anesteziyadan qaçır və daha çox ağrı hiss edirlər. Həm xəstənin, həm də diş həkiminin psixoloji cəhətdən özlərini rahat hiss etməsi üçün keyidici dərman preparatı vurmaq və ağrı stressini yaşamamaq məsləhətdir. Belə edəndə müalicə daha az çəkir və uğurla başa çatır. Xəstə qorxularını gizlətməməli və onu öz həkimi ilə paylaşmalıdır. Həkim isə işə sadə müalicələrdən başlayaraq xəstənin etibarını qazanmalıdır. Əks halda xəstə həmin qorxularla baş-başa qalır, həkiminə anlatmadığı üçün onların öhdəsindən gələ bilmir.

Qorxunu azaltmaq üçün həkim xəstənin etibarını qazanmalıdır, görüş saatı həm həkim, həm də xəstə üçün münasib olmalıdır. Digər tərəfdən stomatologiyada istifadə edilən deşici alətin çıxardığı səsdən narahat olanlara müalicə əsnasında qulaqcıqla musiqi dinləmək məsləhətdir. Diş həkimi və ya assistent yumşaq formada təmas və rəftar göstərməli, müalicə vaxtı aparılacaq əməliyyatlar ətraflı şəkildə izah edilməli, ağrı olarkən uşağa əlini qaldıraraq xəbər verməsi başa salınmalıdır. Həmin üsullar fayda vermədikdə ağrını hiss etdirməmək və xəstəni sakitləşdirmək üçün venadaxili sakitləşdiricilər verilir, bəzən ümumi anesteziya tətbiq edilir".

"Stomafobiya əsasən dişlərin müalicəsini çətin keçirənlərdə əmələ gəlir. Diş həkimi işləyərkən maska taxdığına görə uşaqlar ondan qorxa bilər, ağızlarını açarkən, alətləri görüb qışqırar, nəticədə fobiya yaranar. Ona görə də böyük və ya kiçik yaşda olan uşaqlar dişlərinin ağrıdığını ətrafdakılara hiss etdirməməyə çalışırlar. Xəstə ağrıya dözə bilməyəndə diş həkiminə getmək məcburiyyətində qalır. Diş ağrısı zamanı xəstələrin qorxu səbəbindən müalicəni gecikdirməsi ciddi diş problemlərinə səbəb ola bilər və müalicə uzun çəkər. Ona görə də bu sahədə diş həkimlərinin üzərinə ağır yük düşür və onların diqqətli olması lazımdır. Müalicə zamanı xəstənin diqqətini cəlb edəcək xoş münasibət və diş həkiminin psixoloji cəhətdən normal davranışı çox vacibdir. Stomatoloq və psixoloqun əməkdaşlığı diş həkimindən çəkinənlər üçün faydalıdır. İynə və qandan qorxanlar, digər fobiyası olanların da mütəxəssisə müraciət etməsi məsləhətdir",- deyə psixoloq söhbətə yekun vurub.

**ELAN**

Abşeron rayonu Xırdalan şəhəri Heydər Əliyev prospekti - 6 ünvanında yaşayan Cəfərov Ceyhun Pöhrüz oğlunun adına Sumqayıt şəhər BDYPİ-nin 1 saylı rayonlararası qeydiyyat - imtahan şöbəsi (MERO) tərəfindən verilmiş sürücülük vəsiqəsi və Abşeron rayon Dövlət Yol Polisi İdarəsi tərəfindən verilmiş avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

## Azərbaycanın ən güclü qadın ağır atletləri müəyyənləşib




Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasında kişilər və qadınlar arasında ağır atletika üzrə Azərbaycan çempionatı davam edir. Azərbaycan Ağır Atletika Federasiyasından SİA-ya bildiriblər ki, körpücük üzərinə ilk olaraq qadınlar çıxıblar. Onlar qalibləri Sinkleyr cədvəlinə əsasən müəyyən ediblər. Qızıl medala toplam 154 kiloqram (67+87) nəticə və 231,6 xalla Səbinə Əzimova layiq görülüb. Fəxri kürsüdəki sonrakı yerləri müvafiq olaraq toplam 146 kiloqram (65+81) nəticə və 227,7 xalla Mərziyyə Məhərrəmova və toplam 161 kiloqram (69+92) nəticə və 212,7 xalla Günel Vəliyeva tutublar.

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) birgə təşkil etdiyi yarışda ölkənin bütün bölgələrindən 100-ə yaxın atlet qüvvəsini sınayır. Çempionatın keçirilməsində məqsəd idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsi, texniki cəhətdən hazırlıqlı və dərəcə normalarını yerinə yetirməyi bacaran idmançıların seçilməsi, kişilərdən və qadınlardan ibarət milli komandaların tərkibinin müəyyənləşdirilməsi, onların qarşıdakı beynəlxalq yarışlara hazırlanmasıdır.

## Çeferin yenidən UEFA prezidenti seçilib




Dünən UEFA-da prezident seçkisi keçirilib. Qurumun rəsmi saytında yer alan məlumata görə, təşkilatın hazırkı rəhbəri Aleksandr Çeferin ikinci dəfə prezident seçilib. Çeferinin vahid namizəd olduğu və bu səbəbdən formal xarakter daşıyan seçkidə UEFA-ya üzv olan bütün (55) milli assosiasiyalar, o cümlədən, AFFA sloveniyalı futbol funksionerinə səs verib. Qeyd edək ki, 2016-cı ildən UEFA-ya rəhbərlik edən Çeferin 2019-2023-cü illərdə də qurumun prezidenti olacaq.

## <u>"Football İtalia":</u> "Joze Mourinyo yenidən "İnter"i çalışdıra bilər"



Mançester Yunayted"in sabiq baş məşqçisi Joze Mourinyo yenidən "İnter"i çalışdıra bilər."Football İtalia" yazır ki, portuqaliyalı mütəxəssis bu gün İtalya klubunun baş direktoru Cüzeppe Marotto ilə görüşəcək. Görüş zamanı Mourinyonun Milan təmsilçisinə mümkün keçidi müzakirə olunacaq. Qeyd edək ki,"İnter" rəhbərliyinin hazırkı baş məşqçisi Luçano Spalettinin işindən narazı olduğu iddia olunur. A seriyasının turnir cədvəlində 40 xalla 3-cü pillədə olan komanda lider Yuventus"dan 20 xal geri qalır. Xatırladaq ki, Mourinyo 2008-2010-cü illərdə "İnter"i çalışdırıb.

## Mandzukiç Çin klubundan imtina etdi




"Yuventus"un hücumçusu Mario Mandzukiç Çindən gələn təklifi rədd edib. Qol.az "Corriere di Torino"ya istinadən xəbər verir ki, Superliqa təmsilçisi "Dalian Yifanq" xorvatiyalı futbolçuya illik 10 milyon avro təklif edib. 32 yaşlı forvard isə Turin klubunda qalmağı üstün tutub. Qeyd edək ki, Mandzukiçin "Yuventus"la 2020-ci ilə kimi müqaviləsi var. O, bu mövsüm 22 oyuna 9 qol vurub, 5 qol ötürməsi edib.

## "Mançester Siti" turnir cədvəlinin birinci pilləsinə yüksəlib



Futbol üzrə İngiltərə Premyer Liqasının 27-ci turu "Mançester Siti" üçün uğurlu olub. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, "Everton"un qonağı olan "şəhərlilər" səfərdən 3 xalla qayıdıblar-0:2. Bu qələbə sayəsində 62 xal toplayan Qvardiolanın komandası turnir cədvəlinin birinci pilləsinə sahib çıxıb. Uzun müddət liderliyi əldən verməyən "Liverpul" ikinci pilləyə düşüb. Qeyd edək ki, klubun ehtiyatda bir oyunu var.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**<u>"Azərbaycan" nəşriyyatında çap olunur</u>**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**